# ULU XUDAFƏRİN

Araz üstdə Xudafərin körpüsü
Qardaşlığın olub təməl hörgüsü
Şakir ALBALIYEV



*Qəzet 2025-ci ildən çıxır* № 07-08 (11-12) 22 iyul 2026-cı il

# 22 iyul Milli Mətbuat Günüdür



## Azərbaycan Prezidenti İlham Əliyev Almaniyada rəsmi səfərdə olub

**İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşmək üçün Berlindəki "Villa Borsig" iqamətgahına gəlib.**

Berlində Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.

Həmin gün Prezident İlham Əliyevin Berlində rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts ilə təkbətək görüşü olub.

Sonra Berlində Almaniya-Azərbaycan sənədləri imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Fe derativ Respublikasının Federal Kansleri Fridrix Merts Berlində mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar

## Cəbrayıl rayonunda Azərbaycan Polisinin yaranmasının 108-ci ildönümü qeyd olunub



**02 iyul 2026-cı il tarixdə Cəbrayıl rayonunda Azərbaycan Polisinin yaranmasının 108-ci ildönümü münasibəti ilə tədbir keçirilib.**

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Toğrul Mahmudov, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonun idarə, müəssisə və təşkilatlarının əməkdaşları, polis şöbəsinin şəxsi heyəti, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İştirakçılar əvvəlcə mədəniyyət və istirahət parkında Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri düzüb, xatirəsinə dərin ehtiramlarını bildiriblər. Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək polis şöbəsinin şəxsi heyətini "02 İyul - Azərbaycan Polisi günü" münasibətilə təbrik edərək xoş arzularını bildirib. Qeyd olunub ki, xalqımızın milli maraq və mənafelərinin, sabitliyin və əmin-amanlığın qorunmasında danılmaz rolu olan polis orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidməti olmuşdur. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində davamlı inkişafda olan daxili işlər orqanları ölkədə cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayırlar. Eyni zamanda, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərlərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir və hər zaman vəzifə borcuna sadiq qalaraq xalqın inam və etimadını doğruldurlar.

## Cəbrayıl rayonunun şəhid hərbi qulluqçuları təltif olunublar



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 iyun 2026-cı il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında" Sərəncamına əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş rayonunun hərbi qulluqçuları təltif olunublar:

**3-cü dərəcəli "Rəşadət" ordeni**

Rüstəmov Vüsal Valeh oğlu - gizir

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni**

Hacıyev Fərid Təşkilat oğlu - əsgər
Ataşov Asif Kərim oğlu - əsgər
Əlizadə Nicat Qorxmaz oğlu - əsgər
Şahverdiyev Böyükağa Savalan oğlu - əsgər
İsmayılzadə Sevindik Ramil oğlu - əsgər
Xəlilov Ruhin Müzəffər oğlu - əsgər
İsmayılzadə Vaqif Vüqar oğlu - əsgər
Həmidzadə Hüseyn Akif oğlu - əsgər
Süleymanov Əyyub Rasim oğlu - əsgər
İsmayılov Emin Tahir oğlu - əsgər
Cavadov Mahmud Heydər oğlu - əsgər

Şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

## Şükürbəyli kənd sakinləri doğma yurdlarına qayıdırlar

"Böyük Qayıdış" Dövlət Proqramına əsasən 25 iyun 2026-cı il tarixdə Bakı şəhərindən 6 ailə 26 sakin və Sumqayıt şəhərindən 1 ailə 2 sakin olmaqla ümumillikdə 7 ailə 28 sakin növbəti köç karvanında Cəbrayıl rayonunun Şükürbəyli kəndinə yola salınıb. Xatırladaq ki, bu günədək Cəbrayıl rayonunun Şükürbəyli kəndinə Respublikamızın müxtəlf bölgələrində məskunlaşmış 468 ailə, 2031 rayon sakini köçürülüb.





ULU XUDAFƏRİN

# Beyləqan rayonu, Qəhrəmanlı kəndində məskunlaşan rayon sakinləri ilə səyyar görüş-qəbul keçirilib



16 iyul 2026-cı il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Beyləqan rayonu, Qəhrəmanlı kəndində məskunlaşan rayon sakinləri ilə rayonun Dağ Tumas kənd tam orta məktəbində səyyar görüş-qəbul keçirib. Qəbulda aparatın məsul əməkdaşları və ərazidə müvəqqəti məskunlaşan rayon sakinləri iştirak ediblər.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər bir bölgəsində geniş abadlıq-quruculuq işlərinin aparıldığını qeyd edən RİH başçısı əhalimizin rifahının daha da yaxşılaşması istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini bildirib. Dövlət başçısı tərəfindən aparılan düzgün siyasət nəticəsində ölkəmizin daha da qüdrətlənməsi, işğaldan azad olunmuş torpaqlarımızda aparılan irimiqyaslı bərpa-quruculuq işləri və əhalimizin daimi məskunlaşmasının təmin edilməsi barədə ətraflı məlumat verib.

Rayon rəhbəri qəbula gələn vətəndaşları dinləyərək onları narahat edən məsələlərin həlli istiqamətində müvafiq tapşırıqlar verib. Qəbulda qaldırılan məsələlərdən bir qismi yerindəcə həll olunub, digər məsələlər barəsində isə müraciət edən vətəndaşlara qanunamüvafiq izahatlar verilib.

Sakinlər respublikada və rayonumuzda görülən quruculuq işlərinə, həmçinin, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxsaylı tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

# Bakı şəhəri, Nərimanov rayonunda yerləşən Cəbrayıl RİH-nin qərargahında səyyar görüş-qəbul keçirilib

20 iyul 2026-cı il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov Bakı şəhəri, Nərimanov rayonunda yerləşən rayon İcra Hakimiyyətinin qərargahında sakinlərlə səyyar görüş-qəbul keçirib. Qəbulda aparatın məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.

İcra başçısı səyyar qəbulda ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində qazanılan uğurlardan, əhalinin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərlərindən, aparılan bərpa-quruculuq işlərindən, əhalinin rayonun Şükürbəyli kəndinə köçürülməsindən və qarşıda duran vəzifələrdən ətraflı söhbət açıb.

Qəbulda rayon sakinləri tərəfindən qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb, bəzi məsələlərin həlli isə nəzarətə götürülüb. Sakinlər



əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlərə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# İcra başçısı 5 saylı Cəbrayıl qəsəbəsində səyyar görüş-qəbul keçirib



Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 02 iyul 2026-cı il tarixdə 5 saylı Cəbrayıl qəsəbəsində fəaliyyət göstərən 10 nömrəli tam orta ümumtəhsil məktəbində rayon sakinləri ilə səyyar görüş-qəbul keçirib. Qəbulda aparatın məsul əməkdaşları, rayonda fəaliyyət göstərən idarə, təşkilatların rəhbərləri və qəsəbə sakinləri iştirak ediblər.

Görüşdə dövlət-vətəndaş münasibətindən, ölkə rəhbəri tərəfindən vətəndaşlara göstərilən qayğıdan, respublikamızda və işğaldan azad olunmuş ərazilərdə o, cümlədən Cəbrayıl rayonunda aparılan quruculuq işlərindən və əhalinin qayıdışından söhbət açılıb, sakinləri narahat edən məsələlər dinlənilib. RİH başçısı qəbulda vətəndaşları fərdi qaydada dinləyərək onların səsləndirdikləri problemlərin qısa zamanda aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verib.

Rayon sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqətə və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

# Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov növbəti səyyar qəbulu Bakı şəhərində keçirib



Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 22 iyun 2026-cı il tarixdə Bakı şəhəri, Nərimanov rayonunda yerləşən rayon İcra hakimiyyətinin qərargahında səyyar görüş-qəbul keçirib. Qəbulda aparatın məsul əməkdaşları və ərazidə məskunlaşan rayon sakinləri iştirak ediblər.

Prezident İlham Əliyevin rəhbərliyi ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ölkəmizin hər bir bölgəsində geniş abadlıq-quruculuq işlərinin aparıldığını qeyd edən RİH başçısı əhalimizin rifahının daha da yaxşılaşması istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini bildirib. Dövlət başçısı tərəfindən ölkəmizin daha da qüdrətlənməsi, ərazilərimizin bütövlüyünün təmin olunması, işğaldan azad olunmuş torpaqlarımızda aparılan irimiqyaslı bərpa-quruculuq işləri və əhalimizin daimi məskunlaşmasının təmin edilməsi barədə ətraflı məlumat verib.

Daha sonra rayon rəhbəri qəbula gələn vətəndaşları dinləyərək onları narahat edən məsələlərin həlli istiqamətində müvafiq tapşırıqlar verib. Qəbulda qaldırılan məsələlərdən bir neçəsi dərhal yerindəcə həll olunub, digər məsələlər barəsində isə müraciət edən vətəndaşlara qanunamüvafiq izahatlar verilib.

Qəbulda iştirak edən rayon sakinləri respublikamızda və rayonumuzda görülən quruculuq işlərinə, həmçinin, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxsaylı tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirib, hədsiz minnətdarlıqlarını ifadə ediblər.

# Cəbrayıl rayonunda "Zəfər yazan Ordumuz" mövzusunda tədbir keçirilib

24 iyun 2026-cı il tarixdə Rayon icra Hakimiyyətinin, YAP rayon Təşkilatının və Şərqi Zəngəzur Regional Mədəniyyət idarəsinin rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə "Zəfər yazan Ordumuz" mövzusunda tədbir keçirilib. Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, YAP rayon Təşkilatının sədr müavini Məhəmməd Əliyev, Mərkəzi Kitabxana Sisteminin direktoru Vasif Quliyev və mədəniyyət işçiləri iştirak ediblər.



Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlanan tədbirdə Ümummilli lider Heydər Əliyevin və Respublikamızın ərazi bütövlüyü uğunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Silahlı Qüvvələr Gününə həsr olunmuş videoçarx nümayiş olunub.

Çıxış edənlər 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə Müzəffər Ali Komandan İlham Əliyev başda olmaqla Azərbaycan ordusunun əsgər və zabitlərini, tədbir iştirakçılarını təbrik edərək xoş arzularını bildirib və Tarixi Zəfərimizin əbədi olmasını arzulayıblar.

Natiqlər bildirdilər ki, Ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla hər il iyun ayının 26-sı ölkəmizdə Silahlı Qüvvələr Günü kimi qeyd olunur. Bu günlər xalqımız sonsuz iftixar və fəxarət hissi ilə, qalib Ordumuzun yaranmasının 108 illiyini qeyd edir. Azərbaycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordunun yaradılması Ümummilli Liderin adı ilə bağlıdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib və hər an düşmənə layiqli cavab verməyə əzmindədir.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Azərbaycan Ordusu nizami ordu kimi formalaşmağa başlayıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev isə ordu quruculuğunu dinamik inkişaf etdirib. Azərbaycan Ordusunun bu gücünü 2020-ci il sentyabr ayının 27-də başlayan 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Böyük Qələbə bütün dünyaya göstərdi. Azərbaycanın Zəfər tarixi yazıldı, torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Xalqımızın mübarizliyi və yenilməzliyi bir daha təsdiq olundu. Bütün dünya yumruq kimi Xalq - Ordu birliyinin şahidi oldu və bu birlik Böyük Qələbənin əldə olunmasında mühüm rol oynadı. Bütün bunlara görə Silahlı Qüvvələrin Ali Baş Komandanı, müzəffər Sərkərdə cənab İlham Əliyevi və qüdrətli Azərbaycan ordusunu alqışlayırıq.

# Yeniyetmələr arasında şahmat üzrə Cəbrayıl rayon birinciliyi keçirilib

**14 iyul 2026-cı il tarixdə Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman sektorunun və Təhsil sektorunun birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "20 İyul – Beynəlxalq Şahmat Günü"nə həsr olunmuş yeniyetmələr arasında şahmat üzrə rayon birinciliyi keçirilib.**



Beynəlxalq şahmat qaydalarına əsasən İsveçrə sistemi üzrə iştirakçıların sayına uyğun təşkil olunan yarışda 16 yeniyetmə şahmatçı mübarizə aparıb. Birincilik rayonda şahmat idman növünün inkişaf etdirilməsi, yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili olunması, həmçinin perspektivli şahmatçıların üzə çıxarılması məqsədi daşıyıb. Gərgin və maraqlı yarışda Elvin Mehdiyev daha yaxşı oyun nümayiş etdirərək birinci, Faiq Mehdiyev ikinci, Murad Sədiyev isə üçüncü yerə layiq görülüblər. Qaliblər Şərqi Zəngəzur Regional Gənclər və İdman İdarəsinin dipom və medalları, sponsor qismində iştrak edən "A-Sport" MMC-nin qiymətli hədiyyələri ilə təltif olunublar.

Yeniyetmə şahmatçılarımızı təbrik edir və gələcək yarışlarda uğurlar arzulayırıq.

**Cəbrayıl rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə akademik Tofiq Hacıyevin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq yubiley tədbiri keçirilmişdir. Tədbir mayın 26-da Qobupark yaşayış massivində fəaliyyət göstərən Dirili Qurbani adına Soltanlı kənd tam orta məktəbində keçirildi. Filologiya üzrə fəlsəfə doktoru Aytən Qurbanovanın aparıcılığı ilə keçən tədbiri giriş nitqi ilə Cəbrayıl RİH-nin humanitar məsələlər üzrə müavini Fəridə İbayeva açdı. Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun salamlarını tədbir iştirakçılarına çatdırdı və yubiley tədbirini açıq elan etdi.**

# AKADEMİK TOFİQ HACIYEVİN 90 İLLİYİ




Filologiya elmləri doktoru, ”Ulu Xudafərin” qəzetinin baş redaktoru Şakir Albalıyev akademik Tofiq Hacıyevin həyatı və elmi yaradıcılıq yolu ilə bağlı geniş məruzə etdi.



Akademik Novruz Quliyev 7-ci sinifi qonşu Soltanlı kəndində bitirdiyini qeyd edib, bu məktəbin adlı-sanlı yetirmələrinin olmasını vurğuladı və onlardan biri kimi Tofiq Hacıyevin elmi xidmətlərindən danışdı, onunla bağlı xatirələrini dilə gətirdi.

YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev çıxışında qeyd etdi ki, ilk dəfə 2007-ci ildə akademik Əşrəf Hüseynovun 100 illik yubileyində Tofiq müəllimlə şəxsən görüşüb tanış olub. Daha sonra Bakı Dövlət Universitetində Tofiq Hacıyevin çox böyük təntənə ilə - türk dünyasından gəlmiş alimlərin də iştirak etdiyi 70 illik yubiley tədbirindəki iştirakını xatırlatdı, daha sonra bir neçə dəfə onunla görüşdüyünü dilə gətirdi. Bildirdi ki, ortaq türk dili ideyasını irəli sürənlərdən biri də akademik Tofiq Hacıyev idi. Ən mötəbər bir yerə onun adının verilməsini arzulayan Arif müəllim növbəti belə tədbirlərin Soltanlı kəndində keçirilməsini də arzuladı.

”Humay” mükafatı laureatı, tanınmış alim, professor Nailə Verdizadə çıxışında Tofiq müəllimgillə ailəvi dostluqlarından danışdı. Oğlu İsmayıl Hacıyevin də çox böyük istedad sahibi olmasından, lakin faciəvi şəkildə 19 yaşında ikən vaxtsız dünyasını dəyişməsindən də təəssüf hissi ilə söz açdı. Tofiq müəllimin digər oğlu Azərin də çox savadlı, istedadlı, ləyaqətli övlad olmasını qeyd edib, Tofiq müəllimə Allahdan rəhmət dilədi.

Dosent Soltan Əliyev çıxışında Tofiq müəllimgillə qapıbir qonşu olduqlarını xatırladıb, onun 32 yaşında doktorluq dissertasiyası müdafiə etməsini, alim kimi də, vətəndaş kimi də qədirbilənlik keyfiyyətlərindən söz açdı.

Əməkdar incəsənət xadimi, AYB-nin katibi Elçin Hüseynbəyli Tofiq Hacıyevin böyük alim, pedaqoq və həm də ağırtaxtalı Azərbaycan kişilərindən olduğunu söyləyib, bildirdi ki, Tofiq müəllim onun yaradıcılığı haqda da 3 yazı ilə mətbuatda çıxış edib.

Dosent Novruz Bəşirov çıxışında Tofiq müəllimlə qohumluqlarını diqqətə çəkib dedi ki, 11 il riyaziyyatçı kimi Türkiyədə dərs dediyi dövrdə ondan dəfələrlə Tofiq Hacıyevi soruşublar ki, tanıyırsınızmı? Bu, onun Türkiyədə kifayət qədər nüfuz sahibi olmasından xəbər verən bir əlamət idi. Daha sonra xatirələrini söyləyib, onun əsl insan kimi ömür sürdüyünü dedi və sonda arzu etdi ki, Soltanlı məktəbinə Tofiq Hacıyevin adı verilsin və məktəbdə ”məktəbin yetirmələri” adlı guşə yaradılsın.



Filologiya üzrə fəlsəfə doktoru Nəsir Xankişiyev Tofiq Hacıyevin xalqın milli-mənəvi dəyərlərini aşkarlamaq yolunda çox ciddi cəhdlə çalışmasından söhbət açıb, M.Füzulinin ”Ver sözə ehya ki...” misralarını xatırlatdı, bildirdi ki, Tofiq Hacıyev öz sözünün işığı ilə əbədi yaşayacaqdır.

Uzun müddət AzTv-də işləmiş Səfo Abbasov çıxışında akademik Tofiq Hacıyevin Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəllə görüşməsindən, ondan ödül almasından söz açıb, bu münasibətlə gəlib çəkiliş aparmaqlarından və s. xatirələrindən danışdı.

44 günlük müharibədə şəhid olmuş Ziyadxan Əliyevin anası Müşkünaz xanım çıxışında akademik Tofiq Hacıyevin Azərbaycan dilinin keşiyində qələmi ilə sədaqətlə dayanıb xalqa xidmət etməsindən, oğlunun simasında isə şəhidlərimizin silahı ilə torpaqlarımızın azad edilməsi yolunda sədaqətlə vuruşduqlarını paralel şəkildə müqayisəyə gətirdi. Bildirdi ki, vətən uğrunda özlərini fəda edənlər əbədiyyətə qovuşurlar.

Cəbrayıl rayonunun polis şöbəsinin keçmiş rəisi Polkovnik Vaqif Məhərrəmov çıxışında Cəbrayılın ağır günlərində Tofiq Hacıyevin dəfələrlə rayona gəlməsindən və rayonun taleyi ilə bağlı narahatlıq hissləri keçirməsindən xatirələr işığında söz salıb, qeyd etdi ki, biz Tofiq müəllimin xatirəsini layiqincə yaşatmaq üçün hələ çox işlər görməliyik.

Sonda akademik Tofiq Hacıyevin oğlu Azər Hacıyevə söz verildi: - Cəbrayıllı deyiləndə ağlıma ilk öncə sədaqət sözü gəlir. Biz kökə - torpağa, yurda, vətənə sədaqətliyik. Atamın bu mərtəbəyə yüksəlməyi 1-cisi genetik başlanğıcla bağlıdırsa, ikincisi, boya-başa çatdığı mühitlə, bitirdiyi Soltanlı məktəbi ilə bağlıdır. Məktəb sadəcə daşdan-divardan ibarət deyil, onu məktəb edən orda dərs deyən müəllimlərdir və atama alim kimi ilk təkan verən də məhz onun təhsil aldığı məktəbdir. Şadam ki, atamın arzuladığı Türk dövlətləri birliyi ideyası gerçəkləşib, artıq Türk dövlətləri birliyi yaranıb. Çıxışının sonunda Azər müəllim tədbirin təşkilatçısı olan rayon İcra Hakimiyyətinə, iştirakçılara, çıxışçılara yubiley münasibətilə təşəkkürlərini bildirdi.

Sonda məktəbli Rüfət Axundovun ifasında ”Bayatı-Şiraz” səsləndirildi və alimin əsərlərindən ibarət kitab sərgisinə tamaşa edildi. Xatirə şəkilləri çəkdirildi.

***Şakir Əlifoğlu***

# Cəbrayıl ictimaiyyətinə ağır itkilər üz verib



Şair-Publisist, Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri, rayonumuzun ictimai-siyasi həyatında fəal iştirak etmiş, 1945-ci il təvəllüdlü İsmayıl Səlim oğlu İmanzadə vəfat etmişdir.

Xatırladaq ki, 1993-cü ildən Mingəçevir şəhərində məskunlaşan İsmayıl İmanzadə uzun illər Mingəçevir Şəhər İcra Hakimiyyətinin orqanı olan “Səda” qəzetində baş redaktorun müavini, “İnam” qəzetinin təsisçisi və baş redakoru vəzifəsində çalışmışdır. 26 il “Mingəçevir” qəzetinin şöbə redaktoru və müxbiri işləmişdir. 1995-ci ildən Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, 1999-cu il oktyabr ayından isə Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri, “Bənövşə” (“Mingəçevir leysanı”) ədəbi-bədii dərgisinin təsisçisi və baş redakoru olmuşdur.

İsmayıl İmanzadə ömrünü vətənə, xalqa və dövlətçiliyə xidmətə həsr etmiş, ictimai fəaliyyətində yüksək peşəkarlıq və vətənpərvərlik nümayiş etdirmişdir. Mərhumun Cəbrayılın ictimai-siyasi həyatındakı rolu daim hörmət və ehtiramla yad ediləcək.

***İsmayıl İmanzadənin vəfatı ailəsi, yaxınları və onu tanıyan hər kəs üçün böyük itkidir. Onun əziz, işıqlı xatirəsi hər zaman qəlblərdə yaşayacaq. Rayon İcra Hakimiyyətinin kollektivi adından ailəsinə başsağlığı veririk.***

***Allah rəhmət eləsin!***



Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan istedadlı şair, publisist və Azərbaycan Yazıçılar Birliyinin üzvü, rayonumuzun ictimai-siyasi həyatında fəal rolu olmuş Mirzə Mirim oğlu Mirimov vəfat etmişdir.

1954-cü ildə Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olmuş şair ömrünü ədəbiyyata, Vətən sevgisinə və pedaqoji fəaliyyətə həsr etmişdir. Doğma yurdu Cəbrayılın işğalından sonra məcburu köçkün kimi Biləsuvar rayonu ərazisindəki 2 saylı Cəbrayıl qəsəbəsində məskunlaşmış və Cəbrayıl rayonu 8 saylı tam orta məktəbində uzun müddət təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışıb, tarix fənnini tədris edib.

Xatırladaq ki, tanınmış qələm sahibi “24 günün hünəri”, “Bu sevdanın sonu yoxmuş”, “Köçkün taleli məktəb”, “Yaşanmış ömrün işığı” (Hidayət Səfərli ilə birlikdə) kitablarının, bir sıra şeir almanaxlarının həmmüəlliflərindəndir.

***Mirzə Mirimlinin vəfatı ailəsi, yaxınları və onu sevən hər kəs üçün böyük itkidir. Şairin işıqlı xatirəsi hər zaman qəlblərdə yaşayacaq, rayonun ictimai-siyasi həyatındakı rolu daim hörmət və ehtiramla yad ediləcək. Rayon İcra Hakimiyyətinin kollektivi adından mərhumun ailəsinə başsağlığı verir və Allah rəhmət eləsin deyirik.***

**CƏBRAYIL RAYON İCRA HAKİMİYYƏTİ**

# ÖMÜR MUNCUQ DÜZÜMÜDÜR...

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair, Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər birliklərinin üzvü, Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri İSMAYIL İMANZADƏ uzun sürən ağır xəstəlikdən sonra Mingəçeir şəhərində vəfat etmişdir.**

İsmayıl İmanzadə keçən əsrin 60-cı illərindən ədəbiyyata gəlmişdir. Ədəbi yaradıcılığında öz sözü, cığırı, yolu olan şairlərimizdən biri idi. Cəbrayıl rayonu Böyük Mərcanlı kəndində dünyaya göz açan şair, həyatını, ədəbi yaradıcılığını bütünlüklə dogma vətəninə həsr etmişdir. Yurd həsrəti şairin şəxsi həyatını və ədəbi yaradıcılığını iki dövrə ayırmaq olar. 1993-cü ilə qədər olan Cəbrayıllı, bəxtəvər, xoşbəxt illər və həyatının son 33 ilini keçirdiyi Mingəçevirli, yurd, torpaq, dogma el-oba həsrəti ilə qovrulduğu illər

İsmayıl elə bil öz taleyini görürdü, hələ 1981-ci ildə yazmışdı:

***Duyğu qəlbin közümüdür,***
***Kövrəkliyin özümüdür?***
***Ömür muncuq düzümüdür -***
***Harda qırıla-qırıla***

Ustad sənətkar 1995-ci ildə isə Mingəçevirdə yazırdı:

***Kürü Araz bilir, Bozdağı Diri,***
***Qalıb Cəbrayılda qibləsi, piri.***
***Sızlaya-sızlaya nə vaxtdan bəri***
***Bir şair yaşayır Mingəçevirdə...***

80 illik yubileyini keçirdik, xəstəlik səbəbindən özü iştirak edə bilmədi... Vaxtaşarı zəng edirdim telefonu qızı Ruqiyyə xanım, yaxud yeznəsi Vahid bəy götürərdi...

Ruhun şad olsun, ustad!

***Mirzə Mirimli***







# İki yasım bir-birinə qarışıb...

**Cəbrayılda "Ümid" Ədəbi Birliyini yaratmaqla yerli yazarları ayda bir dəfə öz ətrafına cəm eləyən və onlara ədəbi yön göstərən, tövsiyələr verən şair-publisist İsmayıl Səlim oğlu İmanzadəni (Mərcanlı) 1993-cü ildə taleyin acı rüzgarı Mingəçevir şəhərinə aparıb çıxarmışdı. Burda da öz ədəbi missiyasını uğurla davam etdirən şair həm də AYB-nin Mingəçevir bölməsinin sədri kimi yerli qələm adamlarını başına yığdı, yenə ədəbi aləmə üz tutanlardan məsləhət və köməyini əsirgəmədi. "Bir şair yaşayır Mingəçevirdə" misrasının poetik ünvanı kimi tanış simalarla - respublikamızın müxtəlif bölgələrinə səpələnmiş cəbrayıllılarla mənəvi bağları bərpa etdi. Zəruri məqamlarda görüşlərimiz də oldu. Necə deyərlər, bir aşsaqqal şair-publisist kimi Cəbrayıllı yazarların qaraçuxası idi mənim nəzərimdə İsmayıl İmanzadə. Elə bu düşüncədə olduğuma görə də onun yelqanadlı atıyla Mingəçevirdən üstümüzə çapıb gələn qara xəbərini eşitmək mənim üçün çox sarsıdıcı oldu. Cəbrayılımızın ədəbi aləminin talismanı Cəbrayılsız günlərimizdə hamımızın güvən yerimiz, istinadgahımız idi...**

İsmayıl müəllimin cismani gedişindən çox üzüldüyümdən bir çox qələm adamımızla zəngləşdim; dərdimi bölüşməklə azacıq da olsa yüngülləşmək istəyirdim. Əlirza Xələfli, Əjdər Yunus Rza, Hidayət Səfərli, Mirzə Mirimli... ilə zəngləşdik, Azərbaycan ədəbiyyatı üçün, Cəbrayılımızın ədəbi-mədəni mühiti üçün çox ağır itki olduğunu danışdıq - dilləşdik, özümüz özümüzə bununla sanki həm də bir təsəlli-filan verdik. Hətta şair Mirzə Mirimli ilə bu mövzuda bir saatdan çox telefondan asılı qaldıq, İsmayıl İmanzadə itkisinin ağrı-acısından söz açdıq. Amma ta heç bilməzdim ki, İsmayıl müəllimin 40 mərasimi çıxmamış - iki-üç həftə aradan keçər-keçməz daha bir ağrılı mənəvi zərbə də mənə Mirzə Mirimli itkisindən gələcək. Bir itkiyə dözə bilmirdim, ikincisi də qəfil bir yandan gəldi. Cəbrayıl rayonunun ictimaiyyəti, Cəbrayıl ziyalıları iki nəhəng şairini-publisistini az bir zaman içində itirdi. Şair İsmayıl Səlim oğlu İmanzadə və şair Mirzə Mirim oğlu Mirimli - hər ikisi öz ağsaqqallıqları, ziyalılıqları ilə yaşadıqları yurdda, eldə-obada camaatımız üçün mənəvi qaraçuxa idilər, mənəvi dəyərlərimizin yaşadılmasında, qorunmasında əvəzsiz xidmətlər göstərdilər. İndi bilmirəm ki, necə edim, dərdimin birini qoyum, birini ağlayımmı?.. İki yasa bir elegiyamı deyim? Yatsam yuxuma gəlməzdi belə dərd, belə müsibət!..

İsmayıl İmanzadə Cəbrayıldakı ədəbi liderliyini məcburi köçkünlük faciəsi içində yaşamasına baxmayaraq, Mingəçevir şəhərində yenə də qorudu, Azərbaycan Yazıçılar Birliyinin bölgə sədri kimi şərəflə fəaliyyətini davam etdirdi. Yuxarıda qeyd etdiyim kimi, zəruri hallarda görüşümüzə də gəldi. Hələ Cəbrayılda olarkən filologiya üzrə fəlsəfə doktoru Tariyel Abbaslı ilə birgə yazmağa başladıqları "Torpağın qanlı köynəyi" adlı Cəbrayıl şəhidlərindən bəhs edən kitabını və onun davamı olan "Qəm leysanı" kitabını oxuculara verməklə əslində bir şair-publisist kimi rayon əhalisi ilə "görüşürdü".

2020-ci ilin 44 günlük ikinci Qarabağ döyüşlərində şəhadətə qovuşan igidlərimizdən bəhs edən "Zəfər yolunda" kitabını da Tariyel Abbaslı ilə birgə yazıb başa çatdırmaqla və o kitabın Bakıda, Biləsuvarda təqdimatının keçirilməsilə yenə də bizlərlə canlı şəkildə görüşdü İsmayıl İmanzadə. Hətta bu təqdimat zamanı qədirbilənlik hissi də nümayiş etdirdi, mənim bu sahədə onlara göstərdiyim köməyimi də çəkinmədən, aşkar şəkildə ictimaiyyətə elan etdi...

İsmayıl müəllimlə çox mehriban, yaxın münasibətlərimiz vardı. Ən doğma bir adamım kimi onu hədsiz çox istəyirdim. O da məni çox istəyir, görüşəndə "Ümid"in ümidlərini doğruldanların içərisində mənim adımı xüsusi olaraq çəkirdi. Mənim AYB-yə üzv qəbul olunmağıma görə də zəmanət vermişdi və əlavə etmişdi ki, çox ürəklə, həvəslə bu zəmanəti yazıb. Cəbrayıl rayon İcra Hakimiyyəti onun 80 illik yubileyini Biləsuvarda böyük təntənə ilə keçirəndə səhhəti ilə bağlı orada canlı şəkildə yox, videobağlantı ilə iştirak etmişdi. Ancaq mən yenə də ona ölüm yovutmurdum, inanmazdım ki, ona nəsə olar, ona ölümü heç cürə yaraşdırmırdım. Hələ Cəbrayıla qayıdacağımız günlərə gözümü dikmişdim. Ona görə də qəzetimizin son sayında "İsmayıl İmanzadənin Xudafərin harayı" adlı yazımı da bu ümid üstündə bitirmişdim: Cəbrayıla qayıtmağı və orada yazıb-yaratmağı arzulamışdım. İnternetdə bu yazını oxuyub mənə zəng etdi, təşəkkürlərini bildirdi, qismət ola görüşək dedi. Mən də ağlıma heç nə gəlmədən dedim ki, Allah qoysa görüşərik, İsmayıl müəllim. Yəqin ki, özünə əyan olubmuş nəsə. Bu, bizim İsmayıl müəllimlə son danışığımız oldu. Mənim təsəvvürümdə Cəbrayıl şairlərinin flaqmanı kimi yaşayan İsmayıl İmanzadə mənim nəzərimdə yenə də yaşayır. Nə qədər ki, Cəbrayılda şeir adına yaraşan ədəbi poeziya nümunələri yaradan söz-sənət adamlarımız var və olacaqsa, İsmayıl İmanzadə dünyası da yaşayacaqdır!..



***

Acı hisslərlə yazımı burda bitirmək istərdim. Ağlıma gəlməzdi ki, şair-publisist, tarix müəllimi Mirzə Mirim oğlu Mirimli bizi gözüyaşlı qoyub qəfil bizdən ayrılar. Çünki belə qırdıqaçdı adam deyildi, dostu-yoldaşı yarı yolda qoyub aradan çıxmazdı Mirzə müəllim. Ona görə də bu qəfil gedişə mat-məəttəl qalmışam. Bıldır-bıldır yanaqlarımdan üzüaşağı axan göz yaşlarımı saxlaya bilmirəm. Oturduğum yerdə fikir-xəyal məni aparır, qardaşım qızı Nuray da birdən qayıdıb üzümə baxır, nolub deyə soruşur. Heç nə deyə bilmirəm. İllərin uzun sürən dostluğunu axı ölüm necə qıra bilər? Ürəyimdən-beynimdən bu acılı-şirinli xatirələri silmək mi olar? O bizdə, mən də onlarda dəfələrlə qonaq qalmışıq, gecənin bir əyyamınacan elə yataqda yuxuya gedənəcən söhbətləşmişik - dərdləşmişik. Uzun sürən telefon söhbətlərimizdə də bir-birimizdən ayrılmaq istəməmişik. İndi bu mənhus ölüm qara kabus kimi gəlib aramıza girdi, Mirzə müəllimi məndən alıb apardı. "Dostsuz insan qanadsız quşa bənzər" deyimini ata-babalarımız uzun yüzillərin sınağından çıxarıb deyibmişlər.İnsan psixologiyasının dəyişməz sirri-əbədi qanunuymuş bu. Axı insan ünsiyyətin özüdür. İnsan kiminlə ünsiyyət-ülfət bağlayır? İnsanlar arasından seçib özünə həmtay-bərabər tutduğu dost adlı əziz kimsənə ilə!.. Əziz kimsənəm idi, sirdaşım-dostum idi Mirzə Mirimli. Hərdən məndəki sadəliyə baxıb, gülürdü, deyirdi ki, həddən çox sadəsən, istiqanlısan. Deyirdi hər adam özünü sənə tay tuta bilməz. Mətbuat sahəsində, elm aləmində fədakarlığın, xidmətlərin və mövqeyinlə heç kəs sənlə tən gələ bilməz, özünü sənə bərabər tuta bilməz.

Köhnə kişilərdən idi Mirzə müəllim. Yol-iriz bilən, ədəb-ərkan gözləyən, hər şeyin yerini bilən bir insan, ağsaqqqaltəbiətli, qan yatırdan insan idi. Bir dəfə şair-publisist Hidayət Səfərlinin qızının toyunda ikimizə birgə söz verdilər. Nə illac elədimsə, Mirzə müəllim məndən qabağa düşüb söz-təbrik demədi. Dedi sən vəzifə sahibisən, o boyda rayon qəzetinin baş redaktorusan, alimsən. Biz səndən qabağa düşə bilmərik. Beləcə, Mirzə müəllim bununla məclisdəkilərə də yol gətirməyin - hörmət göstərməyin nümunəsini göstərdi. Klassik kişiliyin, əsl insanlığın canlı etalonu idi. Ailəcanlılığın, vətənsevərliyin daşıyıcısı idi. Elindən-yurdundan qaçqın-köçkün düşdüsə də, obasından-camaatından uzaq düşmədi, el-obamızın kompakt yaşadığı Biləsuvardakı çadır düşərgəsində yaşayıb məskunlaşdı. Əvvəldən axıradək də elə burada yaşadı. Son mənzili də elə məcburi köçkün düşərgəsində salınmış qəbiristanlıq oldu.



*Bu ömürdü, bu taledi, gərdişdi,*
*Güvəndiyim dağlara da qar düşdü,*
*Vədə çatdı, sıramıza vər düşdü.*
*Olan oldu, keçən keçdi deyərlər,*
*Bir gün gələr, Mirzə köçdü deyərlər...*

Elə-obaya bu qədər dərəcədə sadiqliyinə görə də, elcanlı-ailəcanlı olduğuna görə də onu son mənzilə yola salanda doğmadan tutmuş yadacan, böyükdən tutmuş kiçiyəcən hamı hönkürhönkür ağlayıb isti göz yaşı tökdü torpağa. Bu göz yaşlarının istiliyi elə həm də onun qonum-qonşulara qarşı bəslədiyi doğmalığın - istiqanlılığın əlaməti idi. İstiqanlılıq-qayğıkeşlik timsalında olan bir əzizini itirirdi el-oba, camaat. Onun el-obasına, qaynayıb-qarışdığı çadır camaatına bağlılığının bir nümunəsini də heç özünün də bu baxımdan fərqinə varmadan yazdığı "Mənim o şəhərdə nəyim var axı" deyib yazdığı şeirinin girişində ifadəsini tapıb: Bəzilərinin illər öncə onun köçüb şəhərə gəlməsini məsləhət etdiklərinə cavab olaraq yazırdı ki:

*İllər yorğunuyam, dözüm qalmayıb,*
*O yurda dönməyə üzüm qalmayıb,*
*Silinib yollardan, izim qalmayıb,*
*Mənim o şəhərdə nəyim var axı.*

*Ürəkdən o yana yanan yerim yox,*
*Mərhəmət ummağa aman yerim yox,*
*Üz tutub getməyə güman yerim yox,*
*Mənim o şəhərdə kimim var axı.*

*Ömrümün baharı, yaz çağım qalıb,*
*Girov evim qalıb, ocağım qalıb,*
*Üzümü qoymağa torpağım qalıb,*
*Mənim o şəhərdə kimim var axı.*

*Elə göynədim ki, göyüm bu yaşda,*
*Zamanı, taleyi söyüm bu yaşda?*
*De, kimin qapısın döyüm bu yaşda,*
*Mənim o şəhərdə kimim var axı.*

Bu misralarda şeir dili ilə müəllif "mənim o şəhərdə kimim var axı" deməklə mənim məskunlaşdığım çadır qəsəbəsində yüzlərlə tanıdığım - doğmalaşdığım insanlar var, o doğma(laşdığım) insanlardan necə ayrılıb köçüm şəhərə mesajını verir. Bununla bir daha "köç düşdüyü yerdə ağır olar" prinsipini özünə ideal seçən Mirzə müəllim ona (görə) yad mühit olan şəhər həyatını yox, doğma kənd - məcburi köçkün yurdu olan çadır düşərgəsini üstün sayır. Mirzə müəllimin sayəsində tanıdığım həmkəndliləri Elxan Tufan da bu şeirin təsiri altında ona nəzirə yazıb:

*Qəlbinin istəyin - sözün demisən,*
*Yanlışın, doğrusun özün demisən,*
*Elə o zamanlar düzün demisən,*
*Sənin bu şəhərdə nəyin var axı...*

Bax belə sadə və səmimi insan olduğun üçün də, sənə yad-yabançı olandan uzaq olduğun üçün də, saxtalığı - yalanı-palanı sevmədiyin üçün də sən özün boyda bolluca xətirhörmət qazanmışdın, Mirzə müəllim. Bu yazını yazdıqca, səni düşündükcə kövrək hisslər yaxamdan əl çəkmir, doluxsunub-ağlayıram, özümdən ixiyarsız özümü saxlaya bilmirəm. Sən təkcə sevib-seçib bəyəndiyin Eyzangül xanımın, 4 oğul övladının - 4 gəlininin və nəvələrinin doğması deyildin, sən səni kimi tanıyıb-bilənlərin, sənin istiqanlılığını görüb-bilənlərin hamısı üçün doğma idin. Sən hisslərində, düşüncələrində o qədər səmimi idin ki, İsmayıl İmanzadənin ölümündən təsirlənib-kədərlənib özünün feysbuk səhifəndə İsmayıl müəllimin qızı Ruqiyyə xanıma təskinlik məqsədilə və həm də özünün şair dostunun xatirəsi qarşısında son borc olaraq düşüncələrini paylaşdın. Və bəlkə də, şair dostunun xatirəsinə bu vida məktubunla kifayətlənə bilməyib, onun ruhu ilə qovuşmağa tələsdin. İki qəlb sirdaşı, iki gözəl insan, munis dost, iki dəyərli qələm sahibi - İsmayıl İmanzadə və Mirzə Mirimli haqqın dərgahında da bir-birilərinə qovuşdular. Allah hər ikinizə rəhmət eləsin, doğmalarınıza səbr versin, məkanınız cənnət olsun, mənim əziz qələmdaşlarım!..

*Ruhunuza dərin hörmətlə:*
***Şakir Albalıyev***





**Xalq şairi Sabir Rüstəmxanlının məşhur "Ömür kitabı" əsərində yerləşdiyi ərazinin adı ilə "Dağtumas mağarası" adlandırdığı "Divlər sarayı" adlı qədim yaşayış məskəni nədən belə adlanıb? Düzü, lap uşaqlıqdan - ağlım söz kəsəndən atamdan-anamdan eşitdiyim "Divlər sarayı" ifadəsi diqqətimi çəkmişdi. İlk baxışda nağıllarda, rəvayətlərdə oxuduğum - eşitdiyim divlər, əcinnələr gəlmişdi eynimə. Yetkinlik çağlarımdan məni maraqlandıran şeylər barədə evdə valideynlərimdən, məktəbdə müəllimlərimdən soruşub öyrənməyə çalışırdım. Qaneedici cavablar almayanda, öz sualıma daxili dünyamla baş-başa qalmaqla özüm cavablar aramağa başlayırdım. Əlbəttə ki, çətin sualların cavablarını tapmaq da bir günün, bir saatın işi deyildi. Elə olurdu ki, illər çəkirdi sualımın cavabını tapmağım. Bir haşiyə də çıxım ki, hələ məktəbə getmədiyim vaxtlarda Mamed əmi - atamgillə əmiuşağı olan Şavahatoğlu Məhəmməd bizə qonaq gəlmişdi, atam gördüm ona deyir ki, bu Şakir hər şeylə maraqlanır, təəccübləndiyi şeylər barədə mənə çox suallar verir. O da cavab verdi ki, uşağın hər şeylə maraqlanması və suallar verməsi çox yaxşı haldır.**

# "Divlər sarayı" - alp babalarımızın məskəni



Keçirəm əsas mətləbə. Xalq arasında tələffüzdə "Devlər Sarayı" adlandırılan Divlər Sarayı mağarası doğrudanmı səsi-sorağı minilliklərdən gələn mifik səciyyəli qorxunc, bədheybət görkəmli, adamyeyən varlıqlar olan divlərin yaşadığı yer olubmu? Saray ifadəsi əsilzadələrin, xanların, şahların yaşadıqları evlərə - imarətə aiddir. Deməli, bir ipucu da burdan gəlir məsələnin çözümü üçün. Bəşəriyyətin ən qədim insan məakənlərindən biri olan Cəbrayıl rayonu ilə qonşu ərazi hesab edilə bilən Xocavənd rayonunun Azıx kəndi ərazisindəki Azıx mağarasıdır. Paleolit dövrünə aid olunan, yaşı 350-400 min il əvvələ, hətta 1-1,5 milyon il əvvələ gedib çıxan daş dövrünün yaşayış məskəni olan Azıx mağarasında qədim əcdadlarımız yaşayıblar. Deməli, qədim insan məskəni olan Azərbaycanımızın ayrı-ayrı guşələrində - Qobustanda, Azıxda, Əshabi-Kəhfdə olduğu kimi, Dağtumasdakı Divlər Sarayında da ulu əcdadlarımız yaşayıblar.

Buna paralel bir bənzətmə də, müqayisə də gətirmək istərdim. Necə ki, bu gün Azərbaycanda inzibati ərazi bölgüsü kimi müxtəlif ərazilərimizdə bir-birlərinə yaxınlıqda yerləşən, ya da uzaq məsafələrdə olan ayrı-ayrı rayon, şəhər tipli iri yaşayış məskənlərimiz var, o cür də ta qədim dövrlərdə ölkəmizin ayrı-ayrı  guşələrində bir-birilərilə az-çox dərəcədə əlaqələri olan mağara tipli qədim insan məskənləri mövcud olmuşdur. O cümlədən də Azıx mağarası sakinləri ilə Divlər sarayında yaşayan div-adamların bir-birlərilə yaxın qonşuluq münasibətlərinin olması mümkün idi. Başqa sözlə, Azıx qəbiləsi ilə Divlər Sarayı icması arasında öz dövrlərinin qarşılıqlı iqtisadi-mədəni əlaqələrinin olması da təbii idi. Azıx adı, Azıx ifadəsi öz kökündə qədim türksoylu Az (As) tayfalarının adını yaşadır. "Kitabi-Dədə Qorqud"dakı Uçox, Bozox tayfaları - tayfa birlikləri olduğu kimi, Qarabağ-Zəngəzur ərazisində də Azıx - Uzux (Divlər Sarayının timsalında) tayfa əlaqələrinin olması ehtimalı təbiidir. İndi isə gəlirəm Divlər sarayındakı "Div" ifadəsinin məğzinə. Bu gün də obrazlı şəkildə metaforik olaraq nəhəng adamlara div kimi yekəpər adam deyirik, yaxud filankəs "divdi - əjdahadı elə bil" deyirik. Xalqımızın epik-mifik qəhrəmanı olan Koroğlu obrazını da eynimizdə elə div obrazı kimi nəhəng simada təsəvvür edib, canlandırırıq. Deməli, "Divlər Sarayı" ifadəsi div kimi yekəpər, azman tipli insanların sarayı - yaşayış məskəni anlamındadır. Buna bənzər obrazlı bir ifadə də mifik məxluqlar olan azman görkəmli ucubılıxlardır ki, onlar bir ayaqlarını Arazın bu üzündən qoyub, o biri ayaqlarını da Arazın o üzünə aşırmaqla o boyda nəhəng çayı addımları ilə "qarışlayıb" keçə bilirmişlər.

Yazımın bu məqamındaca rəhmətlik Mikayıl Müşfiq demişkən, "yenə şairliyim başıma vurdu" özümdən ixtiyarsız ürəyimdən aşağıdakı misralar süzüldü:

*Alp Devlərlə azman Ucubılıxlar,*
*Düşmənin bağrını yaran Uzuxlar,*
*Dünyanı heyrətə salan Azıxlar,*
*Yer-göyü titrədən Uçox-Bozoxlar -*
*Ulu keçmişimdən şanlı soraqdı*

Zümrüd İbrahim qızı Mənsimovanın doktorluq dissertasiyasında divlərin insan olmaqları haqda oxuyuruq: "Bir sıra xalqların miflərinə görə, divlər bədəncə böyük bir insan tipidir və adi insanlar kimi yaşayırlar. Bəzi xalqların miflərində (misal üçün, skandinav mifləri) divlər əzazil və qəddardır. Ancaq bəzi yunan miflərində divlərin dağlarda yaşayan və sülhsevər olduğu göstərilir".

Alimin fikirlərindən də bir daha gördüyümüz kimi, divlər bədəncə böyük olan yekəpər, nəhəng insanlar olub, elə adi insanlar kimi də ömür sürürlər. Eyni zamanda yunan miflərində divlərin dağlarda yaşayan (Dağtumas dağlarındakı Divlər Sarayı timsalında) sülhsevər adamlar olduğu da bizim yuxarıda söylədiyimiz div-insan paralelliyi ilə bağlı mülahizələrimizi təsdiqləyir.

Divlərin əzazilliyilə bağlı düşüncəyə gəldikdə isə bu "div obrazının mifik təfəkkürdə funksiyasının dəyişilməsi - müsbətdən mənfiyə doğru əvəzlənməsi cəmiyyətin inkişafı ilə bağlı olmuşdur" şəklində izah olunur. Məhz bu fikirdən çıxış edən Z.Mənsimova yazır ki, "divlər bütünlüklə pislik və şərlə bağlı olmayıb, həm də müsbət tərəfləri olan mifik-əfsanəvi varlıqlardır" (səh. 165).

Əlbəttə, bu mülahizələr div obrazının mifik təfəkkürdəki yerini müəyyənləşdirir ki, yaşı bir milyon ildən əvvələ gedib çıxan Divlər Sarayı mağarasının nəhəng, azman adamları Div kimi metaforik adla tanındığı əski dövrlərdə müsbət, xeyirxahlıq funksiyası daşımışlar. Başqa sözlə, divlərin bədheybət, mənfi tipdə səciyyəsi, şər qüvvə kimi çıxış etmələri tarixin nisbətən sonrakı inkişaf dövrləri ilə bağlı olmuşdur. Bu baxımdan insanların öz ulu babalarını div adlandırması və yaşayış məskənlərini "Devlər Sarayı" kimi tanımaları divlərin əski düşüncədəki xeyirxah təbiətli varlıqlar olmalarını ortaya qoyur. Yoxsa ki, heç vəchlə insanlar öz əcdadlarını mifik təfəkkürdəki mənfi personajlara bənzətməz, metaforik olaraq mənfi tiplər kimi adlandırmazdı. Hər kəs öz atasını (ya anasını), babasını, ulu babasını müqəddəs bir səviyyədə dəyərləndirməyə çalışdığı kimi, insanların da öz ulularını xeyirxah mifik varlıqlar kimi xarakterizə edib adlandırmaları təbiidir.

Akademik Tofiq Hacıyevin tərcümə etdiyi bulqar-tatar şairi Mikayıl Baştunun "Şan qızı dastanı"ndan oxuyuruq:

*Alplar arasında vardı*
*Həm yaxşı, həm pis divlər.*

Epik mətndən də aydın olur ki, alplar - qəhrəmanlar div olaraq adlandırılır və bu div - alplar da təbiətləri eribarı ilə müsbət və mənfi tiplərə bölünürlər. Deməli, mifik təfəkkürdə transformasiyaya uğrayaraq müsbət yönümlülükdən mənfiliyə doğru xarakter qazanmış divlər epik-bədii düşüncədə də eyni əlamətlərlə səciyyələndirilmişdir: yaxşı divlərlə yanaşı pis divlər də təsvir olunmuşdur.

Bir sözlə, səsi-sorağı eramızdan əvvəlki yüz min illərdən əvvəl gələn "Divlər Sarayı" mağarasının sakinləri əski mifik təfəkkürdə xeyirxahlıq mücəssəməsi sayılan divlərin timsalında ulu babalarımız - Alp ərənlər olmuşlar.

***Şakir Albalıyev***
***Filologiya elmləri doktoru, dosent***

## Həmkarlarımızı təbrik edirik

# DƏRƏLƏYƏZLİLƏRİN SEVİMLİ QƏZETİ - "DƏRƏLƏYƏZ"




**Sovetlər Birliyinin ideoloqu və qurucusu V.İ.Lenin deyirdi: "Qəzet partiyanın əlində ən kəskin silahdır." Buradakı "partiya" ifadəsi prinsipcə tərəfdaş anlamına gəlir. Yəni burada hansısa bir toplum, ya xalq kütləsi üçün qəzetin - mətbuatın "kəskin" silah timsalında şüurlara, düşüncələrə ideoloji təsir göstərə biləcək kəsərli bir vasitə olması fikri ifadə olunub.**

Bu baxımdan da sovet hökumətində mərkəzi mətbuat deyilən qəzetlərlə yanaşı bölgə - əyalət qəzetləri də nəşr olunurdu. Mərkəzi mətbuat nə idi? Bəs bölgə mətbuatı nə məqsədlə çap olunurdu? Mərkəzi mətbuat dedikdə o dövr üçün Ümumittifaq miqyasında SSRİ-nin - dövlətin paytaxtı olan Moskvada, eləcə də ayrı-ayrı müttəfiq respublikaların mərkəzi hesab olunan paytaxt şəhərlərində (məsələn, Bakıda) çıxan qəzetlər mərkəzi mətbuat olmaqla ümumittifaq, yaxud ayrı-ayrı respublikaların miqyasında və eləcə də ölkə xaricində baş verən ictimai-siyasi, həmçinin ədəbi-bədii və s. əhəmiyyətli hadisələr haqda xəbərləri, məlumatları özündə geniş şəkildə əks etdirirdi. "Pravda", "Kommunist", "Komsomolskaya pravda", "Literaturnaya qazeta" və s. Bu kimi mərkəzi mətbuatı təmsil eləyən qəzetlər kütləvi tirajla çap olunmaqla bütün əhali üçün - oxucular üçün əlçatan idi. Bundan başqa bir də var(dı) bölgə mətbuatı, əyalət qəzetləri. Misal üçün, Bakı və Bakıətrafı şəhər rayonlarının əhalisi mərkəzə məsafəcə, ərazicə yaxın olduqlarına görə mərkəzi mətbuatı oxuya bilirdilər. Amma Bakıdan (mərkəzdən) ucqarlarda yerləşən rayonların əhalisi üçün poçt vasitəsilə onlara çatdırılan mərkəzi mətbuat nümunələrilə yanaşı, bir də həmin rayonların özündə rayon Partiya Komitəsinin (sonralar rayon İcra Hakimiyyətlərinin) orqanı kimi nəşr olunan yerli qəzetlər işıq üzü görür(dü). Həmin ucqar rayonlarda çap olunan qəzetlərdən zəruri nüsxələr Mərkəzə - Bakı şəhərinə Mərkəzi kitabxanaya göndərilməklə əsasən yerli rayon əhalisi üçün nəzərdə tutulurdu. Bu yerli - bölgə qəzetlərini çap etdirməkdən məqsəd ucqarlarda yaşayan əhalini maarifləndirməkdən - ölkədə baş verən hadisələrlə yanaşı bölgədə olan mühüm məlumatlarla da oxucuları xəbərdar etməkdən ibarət idi. Bu regionda fəaliyyət göstərən qəzetlər əsas etibarilə bölgədə baş verənləri mətbuat sahifəsinə çıxarmaq, kiminsə rayon miqyasındakı uğurunu yerli əhaliyə çatdırmaq və s.-dən ibarət idi ki, mərkəzi mətbuat üçün bu kimi məsələləri  operativ və vaxtaşırı olaraq işıqlandırmaq tam mümkün olmurdu. Ancaq bölgədəki seçmə nümunələri Mərkəzi mətbuatda işıqlandırmaqla kifayətlənilirdi. Ona görə də bölgənin vacib və əhəmiyyətli xəbərlərini operativ və vaxtlı-vaxtında oxuculara çatdırmaqda region mətbuatı müstəsna rola malik idi. Necə ki, yerli özfəaliyyət dərnəklərində sayılıb-seçilənlər sonradan ölkə miqyasına çıxır, eləcə də bölgə mətbuatında əks olunanların müəyyən bir hissəsi sonradan mərkəzi qəzetlərə ayaq açırdı. Başqa sözlə, bölgə qəzetləri təmsil etdikləri zonanın ictimai-siyasi, adəbi-bədii - publisistik aynası olaraq oxucuların gözlərində canlandırılırdı. Bir sözlə, oxucular həmin rayonun ictimai, ədəbi-bədii, mənəvi aynası kimi qəzetin səhifələrini gözdən keçirir, mühüm məlumatlara sahib olurdular. Belə mətbu orqanlardan biri də Cəbrayıl rayon Partiya Komitəsinin (İcra Hakimiyyətinin) orqanı olan və mənim baş redaktorluğumla işıq üzü görən "Xudafərin" ("Ulu Xudafərin") qəzetidir ki, həmin qəzetin rayon əhalisi üçün nə qədər mühüm əhəmiyyət daşıdığı məlum məsələdir. Sözün əsl mənasında qəzet oxucular üçün doğma olan mənəvi bir ünvana çevrilibdir.

Əlbəttə, bu cür geniş müqəddimə ilə yazıma başlamağımın müəyyən səbəbi var. 1980-ci illərin sonlarından milli müstəqillik ab-havası başlanandan sonra bədxah qonşularımızın ucbatından faciələr də yaşayası olduq. Soydaşlarımız öz dədə-baba torpaqlarından sürgün edildilər, qaçqınlıq kimi faciəli, onulmaz həyat yaşamaq məcburiyyətində qaldılar. Belə acı məhrumiyyət Qərbi Azərbaycanda yaşayan bütün soydaşlarımızın başına gəldi. O cümlədən də, Dərələyəz mahalında yaşayan ağırelli camaatımız öz doğma yurd-yuvasından didərgin - perik düşdü. Doğulduğu torpaqdan, doğma od-ocaqdan, vətəndən dərbədər düşüb diyarbadiyar səpələnən əhalinin ürəyində vətənin ab-havasını duymaq üçün fiziki məkana ayaq basmaq imkansız olduğundan, mənəvi məkana sığınmaq zərurəti, arzusu-istəyi yarandı. Belə mənəvi məkan yerin-yurdun adını və mənəvi ab-havasını öz üstündə, öz səhifələrində daşıyan və yaşadan "Dərələyəz" ünvanlı qəzet oldu. Ancaq "Dərələyəz" qəzeti bölgə mətbuatı olaraq sovet dövründəki kimi rəsmi mətbuat orqanı kimi yox, mənəvi ehtiyacın ifadəsi olan doğma elin - mahalın tapınaq nöqtəsi kimi ictimaiyyətin istəyi ilə təsis olundu. Artiq 15 ildir ki, "Dərələyəz" qəzeti həmyerlilərinin mənəvi vətən ünvanına dönüb, onların səsini - harayını bir-birlərinə çatdırır, harayına səs verir. Qəzetin baş redaktoru Raqub Kamalov qəzetin vaxtaşırı çıxmasında canfəşanlıqlar göstərir, mütəmadi olaraq müxtəlif guşələrə səpələnib məskunlaşmış dərələyəzlilərlə əlaqə saxlayır, onların arzu-istəklərinə uyğun olaraq qəzetin səhifələrində eşitmək - oxumaq istədikləri həmvətənlərinin səsini-sorağını yayımlayır. Beləliklə, bir-birlərindən fiziksəl olaraq aralı düşmüş soydaşlarının ruhən bir-birlərilə təmaslarını yaradır.

Qeyd edim ki, belə ağır ictimai yükün altına girmək ağır olduğu, əzablı olduğu kimi həm də şərəflidir. Bu işin öhdəsindən ləyaqətlə gəlmək üçün insanın ürəyində təpər olmalı, içində vətən, yurd, el-oba təəssübü çəkmək duyğusu olmalıdır. Əgər bu kimi mənəvi güc varsa, qalan fiziki çətinliklər öz-özünə aradan qalxacaqdır. Mən Raqub müəllimlə söhbət edəndə ona deyirəm ki, sən xoşbəxt, bəxtəvər adamsan ki, belə məsul bir yükü Dərələyəz camaatı sənin üstünə qoyub. Çünki bununla özündən ixtiyarsız olaraq həm Dərələyəz bölgəsinin tarixini yaşadırsan qəzetin səhifələrində, həm də bu minvalla özün də missiyanı həyata keçirməklə tarixin bir parçasına çevrilirsən. Öz eli-obası ilə daimi əlaqədə, münasibətdə ola bilməkdən gözəl duyğu nə ola bilər ki?! İnsan mənəvi varlıqdır, bu mənəvi varlığı isbat edən cəhətlərdən biri, başlıcası da insanlarla "yoxdan var olan" mənəvi varlıq olan sözlə ünsiyyət qura bilməkdir. Söz insanı əbədi yaşadan yenilməz qüvvədir. Dahi şairimiz M.Füzuli demişkən, "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz". Yəni bizim kimliyimiz, kimliyimizin gücü - ifadəsi danışıb yaza bildiyimiz sözlərimizin nə qədər yaşaya biləcəyi dərəcədədir. Nə qədər ki, insanın sözü (və sözdə ifadə olunan əməlləri!) yaşayırsa, insanın ömrü də o qədərdir. Elə bilirəm ki, dünya durduqca yaşayacaq - var olacaq Dərələyəz camaatı qədər də bu ünvanı əks etdirən "Dərələyəz" qəzeti də yaşayacaq, var olacaqdır. 15 illik yubileyi olan "Dərələyəz" qəzetinə sonsuzadək öz yolunu şərəflə yaşatmasını arzulayıram!

***Şakir Albalıyev***
***"Ulu Xudafərin" qəzetinin baş redaktoru,***
***filologiya elmləri doktoru***



ULU XUDAFƏRİN

# YARIM ƏSR SONRA




**İyulun 3-də Cəbrayıl rayonunun Yenikənd kənd orta məktəbinin 2-ci buraxılışı olan məzunlar - 1976-cı ilin məzunları Sumqayıt şəhərində bir araya toplaşdılar. Aradan nə az, nə çox, yarım əsr vaxt keçib, o vaxtdan bu günə çox sular bulanıb, axıb, durulub. Yaşlı nəslin təbirincə desək, o vaxtlar "qurdun quzu ilə otladığı dövr", yəni əmin-amanlıq illəri idi. Dağtumas sovetliyi deyilən ərazini 10-12 parakənd özündə birləşdirirdi.**

Bu kəndlərin çoxunda ibtidai tipli məktəb, bir də 8 illik məktəb (indiki terminlə desək, natamam orta məktəb) vardısa da, sonradan qəsəbə tipində salınmış və Yenikənd adı ilə adlandırılan ərazidə isə bircə orta məktəb vardı. Buna görə də bu 10-12 kəndin uşaqlarının əksəriyyəti 9-10-cu sinifləri, yəni orta təhsili tamamlamaq üçün Yenikənd kəndindəki orta məktəbə gəlirdilər (Az-az ailələrdən uşaqlar orta məktəbi tamamlamaq üçün Cəbrayıl şəhərinə gedərdilər). Deməli, Yenikənd kənd orta məktəbi həm Dağtumas inzibati ərazisində yeganə orta məktəb olduğundan, həmin kəndlərin uşaqları orta təhsillərini tamamlamağa bura gələrdilər, həm də bu minvalla bu məktəb bu kəndlərin insanlarının bir-birləri ilə ilk tanışlıq mərkəzi rolunu oynayır, yetkin gənclər sinif yoldaşlarının şəxsində burada özlərinə məktəb dostları, rəfiqələr də qazanırdılar.

Bu da həyatlarının gələcək mərhələlərində dost-tanışlarının əhatə dairələrinin genişlənməsinə səbəb olurdu. Bəs insan həyatının mənası nədədir? Həyatı mənalı edən də insanların dostlarının - tanışlarının çoxluğudur. Çünki insan canlılar içində ünsiyyət vasitəsilə özünü tanıdır, reallaşdırır, mənəvi kimliyini ortaya qoya bilir. Əslində, insan həyatının erkən mərhələlərində bu məsələlərin fərqinə çox da vara bilmir. Qayğısız, şən, məsum uşaq dünyası həyatın girintili-çıxıntılı yollarına düşüb-çıxmadığından, el dilincə desək, "başları hələ əhlət daşına dəymədiyindən", həyatın elə belə də sakit məcrasında davam edəcəyini düşünür. Bu səbəbdən də zaman keçdikcə, müstəqil həyatın burulğanına düşdükcə, "həyat sən öyrədən deyil, müəllim", - deyə düşünürük. Əlbəttə ki, müəllim həyatın astanasınacan bizi ötürür. Ordan o tərəfə artıq hər kəsin həyat-tale yolu ayrılmağa-haçalanmağa başlayır. Hərə öz alın yazısını öz arzu-əməlləri ilə yazmağa başlayır.

Həə, bax beləcə, 50 il bundan əvvəlin məzunlarının bu müddətdə "başları əhlət daşına da dəydi", hələ desək, o tərəfə də keçdi. Çox sular axdı, bulandı, duruldu dedim. Ona görə ki, bu müddətdə çox qovğalar oldu, başımız çox məşəqqətlər çəkdi. Bu 50 ilin elə yarıdan çox hissəsini nəinki doğma məktəbə, hətta doğma yurdlara - ocaqlara da həsrətdə keçirtdik. Olmazın müsibətlər yaşadıq, qaçqınlıq - köçkünlük faciəsinin əzablarını daddıq. Ona görə də məzunlar yarım əsrdən sonra nəinki doğma məktəb binasını, heç doğma yurdun özünü də gedib ziyarət edə bilmədilər. Tarimar olmuş, viran qalmış evlərimizdən, kəndlərimizdən, rayonumuzdan çox uzaqda - Sumqayıt şəhərində bir yerə toplaşdılar, bir-birlərinin simasında vətənin hənirini duydular, xəyalən də olsa doğma məktəbin, kəndin, yurdun ab-havasını yaşadılar. Sinif yoldaşlarından şairtəbli Aydın Məhərrəmov bu görüşü lirik duyğular üstündə belə təsvirə gətirdi:

*Əlli ili itirmişik ömürdən,*
*Bu dünyanı görə-görə gəlmişik*
*Qocalmışıq - gün dəyirman, ömür dən,*
*Çox illəri dərə-dərə gəlmişik.*

*Ölənimiz,itənimiz çox oldu,*
*Neyniyək ki,dünya belə dünyadı.*
*Gələn gəldi, gedənimiz yox oldu,*
*Əydi bizi dünya, şələ dünyadı.*

*Hər insanın dostlar, dərdi-səri var,*
*Xatirələr bölüşməyə gəlmişik.*
*Ürəyimdə hamınızın yeri var,*
*Bu gün bizlər görüşməyə gəlmişik.*

Hamını kövrəldən bu şeir məclisin ümumi ovqatını əks elətdirirdi. Yarım əsrlik vaxt ərzində onlara dərs demiş müəllimlərin heç biri həyatda yox idi: Əli Quliyev, Həsən Məmmədov (mülki şəhid), Alkərəm Mahmudov, Şəmiddin Cəbrayılov, Əyyub və Musa Abasquliyevlər... Bu məqamda yuxarıdakı fikrə qayıdım bir daha: "Həyat sən öyrədən deyil, müəllim". Görürsünüzmü, həyat vəfa eləmir, müəllimlərimizin cismani ömrü bizləri axıradək müşayiət etməyə çatmır, ancaq onların xatirələri işığında yaşayaraq məsləhət və tövsiyələri ilə hərəkət edəsi oluruq.



Təkcə müəllimləri deyildi, məzunların sinif yoldaşlarından da dünyalarını dəyişənlər vardı: Məhəmməd Abbasov, Sövdəyar Quliyev (şəhid), Hüseyn Vəlixanov, Zülqayda Hüseynova, Tamara İbişova, Vəli Mehralıyev, Gülağa İbrahimov, Məlahət Əliyeva, Raya Hüseynova...

Beləcə, şəhidlərimizin, dünyasını dəyişən müəllimlərinin və sinif yoldaşlarının xatirələrini həzin duyğularla yad edən yarım əsrin məzunları 50 il geriyə boylanıb, keçmiş günlərini vərəqlədilər, xatirəyə dönən şirin məktəb illərini yada saldılar. O vaxtdan bu günə kimi gəlib keçdikləri ömür yollarından söz açdılar. Aydın Məhərrəmovdan sonra Kamet Hacıyev, Arif Allahverdiyev, Şəmil Quliyev, Hafizə Məmmədova, Rəhimə Məmmədova, Hənifə Abdinova, Təbriz Hüseynova, Şakir Maqsudov, Ədalət Allahverdiyev, Adilə Sadıqova, Sima Quliyeva, Kamal Fərhadov, Mənzurə və Qədir Məmmədovlar, Məhəmməd İsmayılov, Sahirə Əbilova, Nailə Hüseynova, Təbriz Quliyeva, Fəxrəddin Allahverdiyev, İmamverdi İsmayılov yaddaşlarında hopub qalmış ötən illərin acılı-şirinli xatirələrini bölüşdülər. Dağtumas, Dağ Maşanlı, Çullu, Qazanzəmi, Söyüdlü... kəndlərindən olan bu insanları bir məktəbin məzunları olmaq kimi nostalji hisslər öz ağuşuna almışdı. Görüş ərzində yarım əsr geriyə qayıtdılar xəyallarında, sözlərində-söhbətlərində, özlüklərində "cavanlıq günüdür ən qiymətli gün" (N.Gəncəvi) deyilən qiymətli çağlara dönərək ovqatlarını təzələdilər.

*Şakir Albalıyev*

# Narkomaniya təkcə fərdi deyil, bəşəri faciədir

**Narkomanlıq müasir dövrdə bütün bəşəriyyəti narahat edən ciddi sosial bəlalardan biridir. Görülən qabaqlayıcı tədbirlərə baxmayaraq, narkomaniyanın miqyasının genişlənməsi dövlətləri daha sərt addımlar atmağa məcbur edir. Narkomanlığa qarşı qətiyyətlə mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə bu istiqamətdə atılan qətiyyətli addımlar nəticəsində son illərdə mühüm uğurlar əldə olunub.**

Sirr deyil ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etsə də, Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdanadək ölkə olduqca çətin durumda idi və bütün sahələr üzrə köklü islahatlara ehtiyac duyulurdu. Xalqın israrlı tələbi ilə 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıtmaqla millətini böyük bəlalardan, dövləti parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən məharətlə qoruyan böyük şəxsiyyət Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə hərtərəfli islahatlar başladı. Ulu Öndərin müdrik siyasətinin mərkəzində insan amili dayandığından vətəndaşların hüquqlarının təmin edilməsi, rifahının yaxşılaşdırılması və sağlamlıqlarının qorunması prioritet istiqamət idi. Ona görə də hər üç istiqamət üzrə uğurlar əldə edilməsinə əngəl yaradan faktorlardan biri olan narkomanlığa qarşı mübarizənin vacibliyi ön plana çəkildi. Ümummilli lider Heydər Əliyevin imzaladığı, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni gücləndirən "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 1996-cı il 26 avqust tarixli Fərman bu sosial bəlaya qarşı mübarizənin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına rəvac verdi. Bundan sonra həmin fərman əsasında 2000-ci ilə qədər olan dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli proqram hazırlandı. Ardınca əsas məqsədi bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradıldı və narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edildi. 1999-cu il iyunun 18-də isə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanun qəbul olundu. Vurğulanmalıdır ki, dünyanı cənginə alan bu problemlə mübarizədə ulu öndər Heydər Əliyevin 2000-ci il 15 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Milli Proqram (2000-2006-cı illər)" və onun tələblərindən irəli gələn məsələlərin həlli, eləcə də aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış xüsusi Dövlət Komissiyasının fəaliyyəti müstəsna əhəmiyyət kəsb edib.

Göründüyü kimi, Azərbaycanın müstəqilliyinin bərpasından sonra dövlət quruculuğu, siyasi, iqtisadi və sosial sahələrdə aparılan islahatlar və vüsət alan inkişaf narkomanlığa qarşı mübarizədə cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizənin aparılmasını da zəruri edib. Bununla əlaqədar dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların və cəmiyyət üzvlərinin bu işdə yüksək fəallığı müsbət nəticələrin əldə olunmasına stimul verib.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Bu problemin vurduğu zərərin həcmi çox böyük olmaqla həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də onun müxtəlif cinayətlər törətməsinə, həmçinin cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. Bu baxımdan dünya dövlətləri narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar. Bundan başqa, dünyada transmilli narkoqruplaşmaların fəaliyyətinin genişlənməsinin ciddi təhlükə yaratması narkotiklərin daşınma marşrutunun, tutulan şəxslərin vətəndaşlığının narkoqaçaqmalçılıq hallarının bir neçə dövlətin ərazisini əhatə etməsi və digər hallar bu cinayətlərə qarşı beynəlxalq mübarizənin zəruriliyini şərtləndirmişdir. Sirr deyil ki, Avropa və Asiya qitələrinin qovşağında yerləşən Azərbaycanın coğrafi-strateji mövqeyi onun ərazisindən narkotiklərin tranzit daşınması üçün əlverişli olduğundan, təbii olaraq bu marşrutdan istifadə olunmasına mütəmadi cəhdlər göstərilir. Fəqət onların cəhdlərinin qarşısı qətiyyətlə alınır və alınacaq. Ümumbəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan yayılması ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrildiyindən, dövlətimiz bütün qüvvə və imkanlarını səfərbər edərək bu bəlanın kökünün kəsilməsi istiqamətində aparılan beynəlxalq mübarizəyə qoşulmuş, bu sahədə həyata keçirilən işlər çərçivəsində zəruri qanunvericilik bazası yaradılmış və institusional islahatlar həyata keçirilmişdir. Bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilməklə bərabər, həmçinin qlobal bəla ilə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak da intensiv xarakter almışdır. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuşdur. Ölkəmizdə beynəlxalq standartlara uyğun milli normativ hüquqi baza yaradılıb və qanunvericilik sistemi təkmilləşdirilib və bu istiqamətdə xeyli işlər görülüb. Təsadüfi deyil ki, ölkəmiz 1998-ci ildə BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyalarına qoşulub. Azərbaycan BMT-nin narkotik vasitələr və psixotrop maddələrlə mübarizə ilə əlaqədar konvensiyalara qoşulduqdan sonra da bu sahədə çoxsaylı qanunvericilik aktları qəbul olunub. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən, 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə Günü" kimi qeyd olunduğu üçün hər il həmin gün ayrı-ayrı dövlətlərin bu sahədə müsbət nəticələrə nail olması, ümumbəşəri problemlə mübarizə üsulları və narkomanlığın müalicə metodlarının təkmilləşdirilməsi barədə beynəlxalq fikir mübadiləsi aparılır. Azərbaycan tərəfinin bir sıra dövlətlər və beynəlxalq qurumlarla birgə fəaliyyəti və sıx əməkdaşlığı da uğurla həyata keçirilir. Bu dəhşətli bəlaya qarşı dövlətlərin birgə mübarizəsində Azərbaycanın mühüm rol oynamasının göstəricilərindən biri də məhz sözügedən mövzuda beynəlxalq konfranslara ev sahibliyi etməklə hər bir dövlətin malik olduğu imkanların təqdimatına, təcrübənin bölüşdürülməsinə və birləşdirməsinə yol açmasıdır. Bakıda baş tutan tədbirlər iştirakçı dövlətlərin hüquq-mühafizə orqanları, regional və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə doğru atılan mühüm addımlar olmaqla, beynəlxalq probleme çevrilmiş narkotiklərin qanunsuz yayılmasının qarşısının alınmasında maraqlı tərəflərin qətiyyətini daha da artırır. 2004-cü ilin yanvarında Bakıda keçirilmiş "Böyük İpək Yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusundakı beynəlxalq konfransın iştirakçılarına müraciətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayıb: "Coğrafi mövqeyindən, ictimai-siyasi quruluşundan, inkişaf səviyyəsindən, iqtisadi vəziyyətindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Bu, bir daha göstərir ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin səmərəliliyi üçün birgə səylərlə ciddi, kəskin, barışmaz və ardıcıl tədbirlərin həyata keçirilməsi olduqca zəruridir". Dövlətimizin başçısı İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin hüquq-mühafizə orqanları rəhbərlərinin 2009-cu il aprelin 21-də Bakıda keçirilən konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunda beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha xüsusi vurğulayaraq deyib: "Terrorizm, separatizm, silahların və narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılması kimi cinayətlər transmilli xarakter daşıdığından dövlətlərin birgə dinc yanaşı yaşamasına ciddi təhlükə yaradır. Ona görə də xalqlarımızın ümumi rifahına nail olmaq, təhlükəsizliyi təmin etmək məqsədi ilə sosial-iqtisadi, siyasi tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi də vacibdir". Qeyd olunmalıdır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə müvəffəqiyyətlə davam etdirən dövlətimizin başçısı İlham Əliyevin yüksək elmi təfəkkürünün, müdrikliyinin, uzaqgörənliyinin, yenilməz iradəsinin və gərgin fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti nəticəsində ildən ilə daha da qüdrətlənən dövlətimiz narkomanlığa, eləcə də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı bu gün də uğurlu mübarizə aparır. Bu mübarizədə Azərbaycan Prezidentinin 2007-ci il 28 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı"nın 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın uğurla həyata keçirilməsinin əvəzsiz rolu olub. Xüsusi vurğulanmalıdır ki, ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı tədbirlərin icrası məqsədilə hazırlanıb və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019- 2024-cü illər üçün Dövlət Proqramı"nın müvəffəqiyyətlə icra olunması bu sahədə uğurlu nəticələrin əldə edilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir.

*(Ardı səh.7-də)*

# Xalq bayramları haqqında fundamental tədqiqat

**Hörmətli oxucular, filologiya elmləri doktoru, dosent Şakir Albalıyevin Azərbaycan xalq bayramlarının ritual-mifoloji əsasları və etnokulturoloji semantikasına həsr olunmuş bu tədqiqatını, sözün həqiqi mənasında, Azərbaycan folklorşünaslığının böyük uğuru hesab etmək olar. Bu, ilk növbədə iki amillə şərtlənir:**

Birincisi, Azərbaycan etnik-mədəni sisteminin Novruz, Xıdır Nəbi, Ramazan və Qurban bayramı kimi dörd əsas mərasim kompleksinin vahid monoqrafik sistemdə birləşdirilməsi ilə;

İkincisi, adları çəkilən bayramların ilk dəfə olaraq ritual-mifoloji əsasları və etnokulturoloji semantikası baxımından vahid nəzəri-metodoloji müstəvidə öyrənilməsi ilə.

Qeyd etməliyik ki, Azərbaycan folklorşünaslığında Novruz, Xıdır Nəbi, Ramazan və Qurban kimi bayramlar haqqında müxtəlif vaxtlarda xeyli irili-xırdalı tədqiqatlar aparılmışdır. Lakin Ş.Albalıyev həmin tədqiqatları da nəzərə almaqla problemə ilk dəfə olaraq Azərbaycan ritual-mifoloji davranış sistemi və etnokulturoloji kimlik kontekstlərində yanaşmışdır. Başqa sözlə, Azərbaycan milli-etnik mədəni sisteminin bu dörd nəhəng ritual özünüifadə kodu bu monoqrafiyaya qədər heç vaxt vahid nəzəri-metodoloji sistem müstəvisinə gətirilməmişdir. Bu isə Azərbaycan bayramlarına münasibətdə yeni baxış sistemi deməkdir. Sözümüzü başqa cür ifadə etmək istəsək, deməliyik ki, Ş.Albalıyev bu tədqiqatı ilə Azərbaycan mərasimşünaslıq elmini "milli bayram sistemi" anlayışının məna səviyyəsinə qədər inkişaf etdirmişdir. Belə ki, sözü gedən bayramların hər birinin özünün janr tipologiyası var. Novruz və Xıdır Nəbi təqvim bayramları olduğu, yəni etnik zaman ritminin ritual modelləri olduğu halda, Ramazan və Qurban bayramları dini bayramlar kimi milli düşüncə və mədəniyyət tariximizin fərqli ritual davranış modelləridir. Monoqrafiyanın əsas ideyası, mahiyyəti və yeniliyi Ş.Albalıyevin bu dörd bayramı vahid ritual sistem müstəvisində Azərbaycan etnokulturoloji kimlyinin özünüifadə kodları kimi mənalanadıra bilməsində ifadə olunmuşdur.

Kitabın ümumi məzmununa gəldikdə deməliyik ki, əsərdə "bayram" konseptinin nəzəri-metodoloji əsasları, semantik strukturu, təsnifatı, metodoloji məsələləri, Novruz bayramına etnokulturoloji baxışlar, onun etnokulturoloji düşüncə sistemi kimi formalaşmasında mifik inancların rolu, etnokulturoloji fəlsəfəsi, ritual-mifoloji strukturu, çərşənbələrin ritual-mifoloji simvolikası və kosmoqonik funksiyası, Novruz çillələrinin ritual-mifoloji semantikası, Novruz bayramının yaradılış simvolikasında buta mifologeminin semantikası, Xıdır Nəbi nəğmələrinin ritual-mifoloji semantikası, Xıdır Nəbi bayramının mərasimi strukturu, Xıdır Nəbi//Xıdır İlyas paralelizmi, Xıdır Nəbi obrazının kosmoqonik kişi başlanğıcı funksiyası, Xıdır Nəbi kultunun mifik kökləri, Xıdır Nəbi bayramının etnokulturoloji özünütəşkil və özünüifadə semantikası, Ramazan bayramının dini əsasları, orucluq mənəvi təmizlənmə mexanizmi kimi, Ramazan bayramının etnik özünütəşkil modeli kimi etnokulturoloji sistemdə yeri, Qurban bayramına etnokulturoloji baxışlar, Qurban bayramının dini-islami semantikası, mənəvi vəhdət modeli kimi etnokulturoloji sistemdə yeri və funksiyası kimi məsələlərdən bəhs olunur.

Təbii ki, bütün bu məsələlərin vahid məna oxu boyunca birləşdirilməsi möhkəm nəzəri-mertodoloji platformanın qurulmasını tələb etmişdir və Ş.Albalıyev də bu işin öhdəsindən monoqrafiyanın ""Bayram" konseptinin nəzəri-metodoloji əsasları" adlı birinci fəslində gəlmişdir. Oxucular burada ilk dəfə olaraq "bayram anlayışının semantik strukturu", "bayramların təsnifatı məsələləri" və "bayram probleminin metodoloji məsələləri" kimi fundamental elmi məsələlərin şərhi ilə tanış olacaqlar.

Monoqrafiyanın "Novruz bayramının etnokulturoloji sistemdə yeri, funksiyası, strukturu və semantikası" adlanan ikinci fəsli əsərin həcm baxımından da ən iri hissəsini təşkil edir. Bu, təbii ki, Novruz bayramının dünyanın nəhəng etnokulturoloji məkanını, o cümlədən Azərbaycan dünyasını əhatə etməsi ilə bağlıdır.

Novruz bayramı dünyanı əks etdirən bir güzgüdür: ancaq bu güzgüdə hər kəs yalnız öz görə biləcəyini görür. İllərlə çiyin-çiyinə çalışdığım, dünyanı və insanları yalnız mərhəmət gözü ilə görən, büllur kimi saf qəlbi ilə öz ətrafına işıq saçan Ş.Albalıyevin mənəviyyat və elmi düşüncə dünyası məni həmişə heyrətə salıb. Başqalarının nəzəri kitablar üzərində illərlə çalışaraq əldə etdiyi bilikləri Allah (c.c.ə.ş.) ona fəhm kimi bəxş edib. O, başqalarının elmi idrakla ehtimal etdiklərini könlü ilə duyur, fəhm edir və anladıqlarını elmi-bədii üslubda təhkiyə edir. Bu cəhətdən, Allahın (c.c.ə.ş.) ona verdiyi payı dərvişanə yaşayan Ş.Albalıyevin monoqrafiyasında reallaşdırmış olduğu "Novruznamə" bütün başqalarından fərqli olaraq, təkcə elmi idrakın yox, həm də onun fəhminin məhsulu kimi orijinal və qiymətlidir.

Ş.Albalıyev Novruzu, sadəcə, bir bayram, yaxud əlamətdar təqvim hadisəsi yox, onu minillər boyunca yaşamış insanlıq tarixinin mahiyyəti və mənasını özündə əks etdirən canlı həyat sistemi hesab edir. Alimə görə, Novruzun tarixi bir mədəniyyət hadisəsi kimi onu bu ad altında tarixə daxil edildiyi vaxtdan deyil, bütün insanlığın təbiətlə iç-içə yaşadığı, özünü Allahın yaratdığı dünyanın bir parçası hesab etdiyi, təbiətin gülü-çiçəyi, ağacları, heyvanları, quşları ilə birgə "ata-övlad", "bacı-qardaş" kimi yaşadığı "vaxtdan" başlanır. Həmin vaxtı insanın "fenomenal" düşüncə, yəni "idraköncəsi" şüurla yaşadığı vaxt hesab edən Ş.Albalıyev Novruz bayramının bütün ümumbəşəri, imumhumanist mahiyyətinin məhz həmin fenomenal düşüncə ilə bağlı olduğunu göstərir. Alimə görə, gerçəkliyin fenomenal şüur modeli ilə dərki ibtidai insana varlıq aləminin ilahi vəhdətini hiss etməyə imkan verdiyi kimi, onun yaratdığı "Novruz" hadisəsini də milli görüşlərin fövqündə duran ümumbəşəri, ümuminsani fenomenə çevirmişdir. Buna görə də Ş.Albalıyevin kitabda təqdim etdiyi Azərbaycan Novruzu bütün zahiri naxışlarına görə - milli, bütün batini mahiyyətinə görə - ümuminsanidir.

Monoqrafiyanın bu fəslində Novruz bayramının Azərbaycan etnokulturoloji sistemində yeri və mənası müəyyənləşdirilmişir. Novruz mərasim kompleksini Azərbaycan xalq bayramları sistemində ritual-mifoloji əsasları və etnokulturoloji semantikası baxımından ən universal bayram hesab edən alim onun çox mürəkkəb struktura malik olduğunu göstərir. Müəllifə görə, Novruz çox qədim tarixə malikdir. Kökləri birbaşa ilkin təbiət stixiyalarının mifləşdirilməsi çağına gedib çıxır.

Novruz fəlsəfəsinin tədqiq tarixinə nəzər salan Ş.Albalıyev bu qənaətlərə gəlir ki, Novruz milli-mənəvi dəyərlər sistemi baxımından Azərbaycan etnik-mədəni düşüncəsinin ayrılmaz və üzvi tərkib hissəsidir. O, milli dövlətçilik ənənələri ilə sıx bağlı olmuşdur.

Bu bayramı mifik inanc fəlsəfəsi baxımından tədqiq edən Ş.Albalıyev onu xalqın milli-mənəvi dəyərlərini özündə yaşadan düşüncə sistemi kimi səciyyələndirir və belə hesab edir ki, bu bayramı etnokulturoloji semantika baxımından əslində, milli kimlik bayramı da adlandırmaq olar. Azərbaycan artıq əsrlərdir ki, öz milli varlığını bu bayram vasitəsilə yaşadır. Novruz bayramının bütün simvolikası yenidən doğuluşu təcəssüm etdirir. Yenilənmənin doğuluş vasitəsilə gerçəkləşdirilməsi bilavasitə mifologiya ilə bağlıdır.

Alim Novruzun fəlsəfəsini araşdıraraq belə bir qənaətə gəlir ki, bu bayram həm də Azərbaycan xalqının həyat fəlsəfəsini, təbiət, cəmiyyət və zaman haqqında düşüncələrini özündə inikas edir. Bu cəhətdən, Novruz həm də etnokulturoloji fəlsəfədir. Novruzun özünə məxsus fəlsəfəsi var və Novruz fəlsəfəsində təbiət, cəmiyyət və zamana münasibətdə sistemli baxış var. Bu bayram kainatın, maddi yaradılış aləminin, ilahi yaradılışın mühüm fəlsəfi əsası kimi çıxış edir. Novruzun etnokulturoloji fəlsəfəsinin əsasında təbiətlə cəmiyyətin harmoniyası ideyası durur.

Azərbaycan Novruz bayramını mərasim və simvolika baxımından tədqiq edən Ş.Albalıyev hesab edir ki, ritual-mifoloji strukturu və simvolikası baxımından mürəkkəb və zəngin məna aləminə malik olan Novruz mərasimlər və ayinlər baxımından bir mərasim kompleksidir. Həmin kompleksə aid çərşənbələr, çillələr, Novruz simvolları və s. haqqında çox yazılmışdır. Bu yazıların əksəriyyətində sistemlilik çatmır. Yazı müəlliflərinin çoxu öz şəxsi Novruz xatirələrinə əsaslanır, digər bölgələrin Novruz adət-ənənələrinə, demək olar ki, fikir vermirlər. Halbuki bütövlükdə folklor hadisəsi olan Novruzun adət-ənənələri variativ xarakter daşıyır: variantlılıq bu bayramın, demək olar ki, bütün elementlərində müşahidə olunur. Bölgədən-bölgəyə yerdəyişmələr, variativ fərqlər, eyni bir adətin fərqli şəkildə adlandırılması, yaxud müxtəlif adətlərin müxtəlif bölgələrdə fərqli işləkliyə malik olması, yəni birində öndə olan adətin o biri bölgədə az işlənməsi və s. dərhal özünü göstərir. Novruzun bir bayram kompleksi kimi strukturunun ən mühüm elementləri çərşənbələr və çillələrdir.

Novruzşünaslıqda buta simvolu məsələsinə ilk dəfə toxunan Ş.Albalıyev göstərir ki, təbiət yazda təzədən qış sükutundan oyanıb cana gəlməklə bərabər, öz enerjisini təbiətin bir parçası olan insanın da qanına-ruhuna yeridir. İnsanda fiziki baxımdan da bir qaynama hissi baş qaldırır, ehtiras coşur, ruhunda - mənəvi dünyasında da bir təzəlik ab-havası yaranır. Beləliklə, mənəvi və cismani-fiziki baxımdan bütöv olaraq insanda dirçəlmə, yenilənmə əhval-ruhiyyəsi özünü göstərir. Bu, təbiətdə tumurcuqlanma, çiçəkaçma, nəhayətdə barvermə funksiyası ilə reallaşdığı kimi, insan dünyasında da butaalma, adaxlanma və toy mərhələlərindən keçməklə gələcəkdə nəsil artımı - övlad dünyaya gətirməklə nəticələnir. Bu cəhətdən, təbiətin ilk butası tumurcuqlama, ləçəkləmə - çiçəkləmədirsə, insanın da butası məhz təbiətin bu ünsürlərini əks etdirən buta naxışlarında ilkin rəmzlərini tapır. Ona görə də buta mifologemi ilə yaz fəsli, həmçinin yazın gəlişinin sosioloji ifadəsi olan Novruz (habelə Novruzun tərkib hissəsi olan İlaxır çərşənbəsi) bayramı arasında sırf bağlılığın mövcudluğu təbiidir.

Monoqrafiyanın "Xıdır Nəbi bayramı: ritual-mifoloji strukturu və etnokulturoloji semantikası" adlanan üçüncü fəsli bu bayrama yeni baxışın reallaşdırılması ilə əlamətdardır. Müəllif burada əvvəlcə Xıdır Nəbi nəğmələrinin ritual-mifoloji semantikasını öyrənmiş, sonra bayramın mərasimi strukturunu (məkan-zaman semantikası) aşkarlamış, Xıdır Nəbi//Xıdır İlyas paralelizminin köklərini açmış, Xıdır Nəbi obrazının kosmoqonik kişi başlanğıcı funksiyası ilə bağlılığı məsələsinə münasibət bildirmiş, Xıdır Nəbi kultunun mifik köklərini üzə çıxarmış və bütün bunların əsasında Xıdır Nəbi bayramının etnokulturoloji özünütəşkil və özünüifadə forması kimi semantikasını aşkarlamışdır.

Fəsildə əldə olunan yeniliklər içərisində müəllifin Novruz və Xıdır Nəbi bayramlarının vahid müstəvidə qovuşması ilə bağlı fikirləri tamamilə yenidir. Ş.Albalıyevin yeni konsepsiyasına görə, Novruz və Xıdır Nəbi bayramları xalq təqviminin tərkib hissəsi kimi bir-birindən ayrılmazdır: bu bayramlar xalq təqviminin müxtəlif mərhələlərinə aid olub, etnokulturoloji mahiyyət və konsepsiya baxımından birləşirlər. Onlar bir-birini əvəz etməyən, biri o birinə alternativ olmayan müstəqil bayramlar kimi xalqın zaman haqqında vahid mifik düşüncə sisteminin tərkib hissələridir. Ancaq bütün bunlarla bərabər qeyd olunmalıdır ki, Novruz etnokulturoloji coğrafiyası baxımından Xıdır Nəbiyə nisbətən daha geniş yayılmışdır. Xalq təqviminə görə, Xızır Nəbi bayramı da Novruz kimi qış-yaz əvəzlənməsi ritmini inikas edir. Lakin Novruz bayramının təqvimdə dəqiq günlərinin olmasına baxmayaraq, Xıdır Nəbinin belə bir dəqiq tarixi yoxdur. Bu isə öz növbəsində "Bu, niyə belədir? Hansı səbəblərlə bağlıdır?" suallarını doğurur. Ş.Albalıyev belə hesab edir ki, Xızır Nəbi bayramı Novruz bayramı ilə bağlı mərasim kompleksi ilə sıx bağlıdır. Hər iki bayram vahid xalq təqviminin ardıcıl gələn mərhələləridir. Bu cəhətdən, Novruz bayramı Xıdır Nəbi bayramını öz içərisinə alaraq, bir növ, assimilyasiyaya da uğratmış və öz zaman-məkan strukturuna daxil etmişdir.

Ş.Albalıyev folklorşünaslıqda ilk dəfə olaraq belə hesab edir ki:

- Xıdır Nəbi bayramı etnik özünütəşkil formasıdır: xalq bu bayram vasitəsilə ritmik olaraq özünü yenidən təşkil edir.
- Bu bayram etnik davranış modelidir: xalq bayramın davranış modellərini kütləvi şəkildə icra etməklə vahid toplum kimi təşkil olunur.
- Xıdır Nəbi bayramı özünüifadə formasıdır: xalqın bütün ümummilli dəyərləri bu bayramın simvolları vasitəsilə ifadə olunur.
- O, milli kimliyin ifadə və özünütəşkil formasıdır: xalq bu bayramda qorunub qalmış milli özünütəşkil sxemləri əsasında özünü yenidən yaradır.
- Xıdır Nəbi bayramı kollektiv şüur formasıdır: xalq bu bayram vasitəsilə onun bütün fərdlərini birləşdirən kollektiv düşüncəni aktuallaşdırır.

Monoqrafiyanın "Ramazan bayramı mənəvi kamilləşmə və etnik özünütəşkil modeli kimi" adlanan dördüncü və "Qurban bayramının ritual-mifoloji kökləri, dini əsasları və etnokulturoloji semantikası" adlanan beşinci fəsli bu dini bayramların indiyə qədər məlum olan tədqiqatlardan fərqli olaraq, yeni mənalar müstəvisində öyrənilməsi ilə əlamətdardır. Belə ki, Azərbaycan fiolklorşünaslığında ilk dəfə olaraq Ş.Albalıyevin bu monoqrafiyasında Ramazan bayramı etnokulturoloji sistemin özünütəşkil modeli kimi öyrənilmiş, Qurban bayramı isə etnokulturoloji sistemin mənəvi vəhdət modeli kimi şərh olunmuşdur.

Əlbəttə, Ş.Albalıyevin Azərbaycan xalq bayramlarına yeni elmi-nəzəri baxışları ehtiva edən monoqrafiyası yeniliklərlə zəngindir. Bu baxımdan, oxucuların ona böyük maraq göstərəcəyinə, əsərin Azərbaycan folklorşünaslığına böyük dəyərlər qatacağına inanır və müəllifə bundan sonrakı tədqiqatlarında uğurlar arzulayıram.



*Seyfəddin RZASOY,*
*Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor*

# Narkomaniya təkcə fərdi deyil, bəşəri faciədir

*(Əvvəli səh.6-da)*

Qeyd edilməlidir ki, 2005-ci ildə qəbul olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, həmçinin "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə", eləcə də "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların" siyahılarının təsdiq edilməsi haqqında qanunlar sözügedən məsələlərlə əlaqədar dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini daha dəqiq müəyyənləşdirməklə, bununla əlaqədar mövcud ictimai münasibətlərin hüquqi tənzimlənmə mexanizminin səmərəliliyini artırıb və beləliklə əvvəlki dövrlərdə təcrübədə yaranmış problemlər birdəfəlik həllini tapıb.

Hər kəsə məlumdur ki, insan amili dövlət siyasətinin əsasını təşkil edir. Prezident İlham Əliyev həyata keçirilən siyasətin mərkəzində vətəndaşın dayandığını hər zaman xüsusi vurğulayır. Azərbaycanın gələcəyi olan gənclərimizə isə diqqət və qayğı daha qabarıq sezilir. Ardıcıl şəkildə qəbul olunan Dövlət proqramları gəncliyin inkişafına, onların potensial imkanlarının genişləndirilməsinə müsbət təsir göstərib. Gənclərin hərtərəfli püxtələşməsi məqsədilə onlarda idmana olan marağın artırılmasında, mədəni-kütləvi tədbirlərin sayının artırılmasında, bununla əlaqədar müxtəlif komplekslərin, o cümlədən Olimpiya İdman komplekslərinin inşasında məqsəd sağlamlığın təmin edilməsi ilə yanaşı, insanların belə ağır fəsadlar törədən vərdişlərdən uzaqlamasına nail olmaqdır.

Bu sahədə qətiyyətli mübarizənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə gənc nəslin sağlamlığının qorunması və onların hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin də olduqca əhəmiyyətli olması xüsusi vurğulanmalıdır.

Narkotik asılılıq dünyada müxtəlif əhali qrupları arasında geniş yayıldığına görə sırf tibbi problemdən sosial problemə çevrilib. Problemin həllinə xidmət edən mühüm addımlardan biri hər zaman qeyd edildiyi kimi, preventive tədbirlərin görülməsi, o cümlədən maarifləndirmə işinin lazımi səviyyədə qurulmasıdır. Əsas məqsəd yeniyetmələrimizin və gənclərimizin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaqdır. Zənnimcə, narkomaniyanın profilaktikası ailə və məktəbdən başlanmalıdır. Təbii ki, əsas məqamlardan biri valideynlərin düzgün həyat tərzi keçirməklə övlada örnək olmasıdır. Valideynlərin uşaqlarının narkomaniyadan qorunmasında bu profilaktikanın müstəsna rolu vardır. Bununla bərabər, valideynlə övlad arasında qarşılıqlı inamın olması da vacib şərtdir. Təcrübədə yeniyetmələrin və gənclərin pis vərdişlərə və təhlükəli işlərə daha çox meylli olmalarını nəzərə alaraq hesab edirəm ki, narkomaniyanın qarşısını almağın digər əlverişli yolu təhsil müəssisələrində, xüsusən də məktəblərdə geniş maarifləndirmə işinin aparılmasıdır.

Belə ki, elm ocaqlarında azyaşlılar, yeniyetmələr və gənclər arasında narkomaniyanın profilaktikası mütləq həyata keçirilməli görülən tədbirlər başa düşüləcək və aydın tərzdə olmalı kütləvi xarakter daşımalıdır.

Sevindirici haldır ki, bu gün hər bir dövlət orqanı və qurumu, həmçinin müvafiq təşkilatlar üzərinə düşən vəzifələri tələb edilən səviyyədə yerinə yetirməklə qarşıya qoyulan məqsədlərə tam nail olmağa töhfələr verməyə çalışırlar ki, bu da təbii olaraq müsbət nəticələrini göstərməkdədir.

Cəbrayıl rayon prokurorluğunun fəaliyyəti də aidiyyəti dövlət qurumları ilə birlikdə səmərəli işgüzar əlaqələr yaratmaqla xidməti ərazidə nizam-intizamın davamlılığının təmin edilməsinə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, cinayətkarlığa, eləcə də digər qanunazidd əməllərə, o cümlədən sözügedən ümumbəşəri problemə qarşı mübarizəyə yönəlib.

Hesab edirəm ki, bu bəla ilə mübarizədə vətəndaşlar da əllərindən gələni əsirgəməməli, xüsusən də ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməlidir. Sağlam düşüncəli insanlar dərk edirlər ki, narkomaniya cinayət, ailələrin dağılması, çarəsiz xəstəlik, ölüm və sair bu kimi digər ağır nəticələrə gedən yolun başlanğıcı olmaqla təkcə hər hansı bir fərd üçün deyil, eyni zamanda, bütün cəmiyyət üçün böyük təhlükədir.

Odur ki, insanların sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin harmoniyasını pozan, sosial-iqtisadi tərəqqini ləngidən, bir sözlə həyatı iflic edən narkomanlığa münasibətdə hər birimiz barışmaz mövqe tutmalı və ümumbəşəri bəlaya qarşı qətiyyətli mübarizə aparmalıyıq.

*Bəhruz Qəniyev*
*Cəbrayıl Rayon Prokurorluğunun müstəntiqi, III dərəcəli hüquqşünas*



ULU XUDAFƏRİN

# Azərbaycanlı alimlər Qazaxıstanda Beynəlxalq Muzey Konqresində iştirak ediblər

**18 - 21 may 2026-cı ildə Qazaxıstan Respublikasının Astana şəhərində Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi və Qazaxıstan Respublikasının Milli Muzeyinin təşkilatçılığı ilə "Tarixi - mədəni irsin qorunması: innovasiyalar və rəqəmsal transformasiya" mövzusunda IV Beynəlxalq Qazaxıstan Muzey Konqresi keçirilmişdir. Qazaxıstan, Azərbaycan, Özbəkistan, Qırğızıstan, ABŞ, Fransa, Türkiyənin alim və mütəxəssislərinin iştirak etdiyi Konqres maraqlı məruzələr, diskussiyalar, həmçinin yeni tanışlıqlar və beynəlxalq əməkdaşlıqla əlaqədar təkliflərlə yaddaşlarda iz qoymuşdur.**



Konqresdə Milli Azərbaycan Tarixi Muzeyinin "Fondların qeydiyyatı və elmi təsnifatı" şöbəsinin böyük elmi işçisi, numizmat mütəxəssis, tarix üzrə fəlsəfə doktoru Aygün Musa qızı Məmmədova "Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondu sikkələrinin müasir rəqəmsallığı" mövzusunda məruzə etmişdir. Azərbaycanı təmsil edən yeganə məruzəçi Aygün Məmmədova Numizmatika Fondunun yaranması tarixi, keçmişi və bü günkü vəziyyəti, sikkələrin qorunması, fondun gündəlik iş rejimi, müasir texnologiyaların fondda tətbiqi haqqında ətraflı məlumat vermiş, problemlərin həlli, gələcək perspektivlər ilə əlaqədar fikirlərini bildirmişdir. Elektron prezentasiyada Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyası, Numizmatika Fondunun müasir vəziyyəti, fond işçilərinin gündəlik işini əks etdirən fotolar nümayiş edilmişdir. Məruzə maraqla qarşılanmış və əməkdaşlıqla əlaqədar təkliflər edilmişdir.

Aygün Məmmədova Milli Azərbaycan Tarixi Muzeyinin nəşrlərini və Azərbaycanda müntəzəm olaraq nəşr edilən "Metafizika" və "Elm tarixi" jurnallarını Qazaxıstan Respublikasının



Milli Muzeyinin müdiriyyətinə və kitabxanasına hədiyyə etmişdir.

Konqresdə Azərbaycandan dinləyici olaraq iştirak edən, AMEA-nın Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri doktoru, dosent Şakir Albalıyev Qazaxıstan Respublikasının Milli Muzeyinin kitabxanasına əsərlərini hədiyyə etmiş və xarici alimlərlə tanışlıq yaratmışdır.




Muzeyin zəngin və müasir ekspozisiyasını ziyarət edən iştirakçılar həm də milli təamları dadmaq, musiqi və rəqsləri izləmək imkanını da əldə etmişlər.



Konqres iştirakçılarına sertifikatlar təqdim olunmuş, materialların nəşri nəzərdə tutulmuşdur.

*Aygün Məmmədova,*
*AJB üzvü, tarix üzrə fəlsəfə doktoru*

# Təbrik edirik!




Həmyerlimiz tibb üzrə fəlsəfə doktoru, dosent, Bakı Sağlamlıq Mərkəzinin baş həkimi Elxan Sərxan oğlu Hacıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 iyun 2026-cı il tarixli Sərəncamı ilə səhiyyə sahəsindəki səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

Elxan həkimi bu yüksək mükafata görə təbrik edir, daha yeni-yeni uğurlara imza atmasını arzulayırıq!

*"Ulu Xudafərin"*

## Çatacaq daha

*(Şair dostum Mirzə Mirimlinin əziz xatirəsinə)*

Bir şair ömrü də belə qurtardı,
Qərib bir torpaqda yatacaq daha.
Dünyanın dərdinə özündən sonra
Qalanlar yaşayıb batacaq daha.

Yurdu biləcəkdir məzar daşını,
Gələnə qaldırmaz bir də başını.
Bir də açmayacaq söz savaşını,
Qələmi-kağızı atacaq daha.

İtirdik, a dostlar, söz xirdarını,
Gördük bu həyatın etibarını.
Yollar yormayacaq ayaqlarını,
Sonuncu ünvana çatacaq daha.

Torpağa qoyulur əbədi bir can,
Bu anı yaşamaq deyildir asan.
Sözünün yolunu tutan bu insan
Ölümün yolunu tutacaq daha.

Malik, O insan yaşadı nələr,
Çəkdiyi acını görənlər bilər.
Şairdən geridə son təsəllilər
Bizim başımızı qatacaq daha.

*Malik Əhmədoğlu*

## Sağımsan mənim

*(Şair dostum Mirzə Mirimlinin əziz xatirəsinə)*

Nə deyim, danışım, lal olub dilim,
Necə ağır gəldi bu ayım, ilim.
Qolum da qalxmır ki, gözümü silim,
Görüm ki, həminki dağımsan mənim.

Niyə belə etdi bu zalım fələk,
Qurdu fitnə-fəsad, min hiylə, kələk.
Yol verməz bir daha hayına gələk,
Layla-bayatımsan, ağımsan mənim.

Xatirələr tükənməz ki, çağlayar,
O lal sükut qəlbimi hey dağlayar.
Dərdi könlüm için-için ağlayar,
Deyər ki xoş günüm, çağımsan mənim.

Qırılıb mizrabım, susubdu sazım,
Ötüb-keçib çoxum, qalıbdı azım.
Ölümdən-itimdən niyə mən yazım?!
Var olan varlığım, sağımsan mənim.

*Hidayət Səfərli*
*10.07.2026*

Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti şair-publisist, AYB-nin Mingəçevir bölməsinin sədri

**İsmayıl Səlim oğlu İmanzadənin**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti şair-publisist

**Mirzə Mirim oğlu Mirimlinin**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## Mən yaşda yetim

Ay ana, gözümün yaşı qurumaz,
Bir ömür boyunca gəzərəm səni.
Bir qərib məzarın daşı qurumaz,
Bu göz yaşlarımla bəzərəm səni.

Bir qəbir önündə məzar başında,
Ay ana, diz üstə çökənin gəlib.
Gözlərim donubdu məzar daşında,
Ağlayıb göz yaşı tökənin gəlib.

Neynəyim, dünyanın işi beləymiş,
Bilməzdim bir ölüm-itim olarmış.
Dünya başdan-başa dərdmiş-gileymiş,
Ana, mən yaşda da yetim olarmış...

*22.11.2025*

## Ay Ana

Ayağı torpaqdan üzülən anam,
Saçına ağ naxış düzülən anam,
Şəhərlər içində əzilən anam,
Gözəl günümüzə tələdi dünya,
Neyniyim, ay ana, belədi dünya.

Cənnət bağçasınnan-bağınnan oldu
Gəzdiyi arannan, dağınnan oldu
Ömrünün bəxtəvər çağınnan oldu
Bizi kərəm edən lələdi dünya.
Neyniyim, ay ana, belədi dünya.

Süfrən bol olardı,bağın bəhərli
Qaçqın düşdün oldun qəmli-qəhərli
Özün kənd adamı,qəbrin şəhərli...
Məni dərdə-qəmə belədi dünya,
Neyniyim, ay ana, belədi dünya.

*28.03.2024*
*Aydın Məhərrəmov*

# Haqq sözün sahibi idi...

**Bu gün bir şairi deyil, qəlbinin ağrısını xalqın vicdanına çevirən bir sözü torpağa əmanət edirik. Mirzə Mirimli ömrünün son nəfəsinə qədər insanın insana borcunu, yetimin göz yaşını, cəmiyyətin susqun günahını misralarına hopduran sənətkar idi. Onun "Tutma əllərimdən…" fəryadı bir uşağın səsi deyil, özünü mühakimə edən insanlığın etirafı kimi yaddaşlara həkk olundu.**

Bu şeirdə şair dilənçi uşağın əlini öz əlində deyil, öz vicdanında hiss edir. "Səni dilənməyə mən öyrətmişəm" etirafı ilə o, günahı taleyin, zamanın və ya başqalarının üzərinə atmır; insanın insana qarşı məsuliyyətini öz üzərinə götürür. Şeirin böyüklüyü də bundadır: o, oxucunu sadəcə mərhəmətə çağırmır, onu öz vicdanı ilə üz-üzə qoyur. Mirzə Mirimlinin səsi burada təkcə bir şairin səsi deyil, əsrlər boyu susmuş insandaşlığın yenidən dilə gələn harayıdır.

Mirzə müəllim artıq aramızda deyil. Lakin haqqı deyən söz ölmür; o, zamanın yaddaşında vicdan çırağı kimi yanır. Bu gün baş əyərək anlayırıq ki, onun qələmi yalnız misra yazmırmış, hər birimizin qəlbində yuxuya getmiş mərhəməti oyadırmış.

Mirzə Mirimlinin əziz doğmalarına, dostlarına və sözünü sevən bütün könüllərə dərin hüznlə başsağlığı verirəm. Uca Yaradan ruhunu rəhmətində qərar versin. Qoy onun sözü xalqımızın mənəvi səmasında daim işıq saçsın; çünki vicdanı oyadan sənətkarlar cismani ömürlərini başa vursalar da, mənəvi varlıqları zamanın fövqündə yaşamaqda davam edirlər.



*Hacı Mələmməd Dayanduroğlu*

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti

**Məmmədov Məhəmməd Xankişi oğlu, Fətiyev Məhəmmədəli Əbil oğlu, Cəfərquliyeva Mübarək Məhəmməd qızı, Fərhadova Durna Alıcı qızı, Ağazadə Cavid Qabil oğlu, Məmmədov Əliyar Topuş oğlu, Şükürova Dəstə Xanlar qızı, Qaraşova Roza Həsən qızı, Məmmədov Alkərəm Babalar oğlu və Qasımov Rəfayıl Əziz oğlunun** vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Təsisçi və baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində qeydə alınıb. Şəhadətnamə №B71A40FEB25945
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 3103823792**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ83AIIB410400C9445674829103**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82; (010) 712-36-97

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Ulu Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 946**
**Tiraj: 2000**